*Cəvahir Ağayeva*

# *Unudulmayan xatirələr*

"Elm və təhsil"
Bakı - 2015

***Redaktor:*** ***Xeyirbəy Sabir Qasımov***
*Tarix üzrə fəlsəfə doktoru*

***Bu kitab bir şəhidin həyatına həsr olunmuşdur. Əsərin başlıca qəhrəmanı İsak Fərəcovdur. Bu insanın hərbi sənətinə sevgisi, dəfələrlə təsdiqlənmişdir. Ağrılı - acılı günlərinə baxmayaraq, İsak ruhdan düşmürdu. Onun döyüş yoldaşlarıda İsakın mərdliyini, dostlara sədaqətini, qorxmazlığını, vətənə olan dərin sevgisini təsdiqləmişlər. İsakın və onun döyüş yoldaşları ən ağır döyüşlərdə iştirak etmişlər. Təqdim olunan romanın hər səhifəsində buna əmin olacaqsınız. Bu kitabda təsvir etdiyim hər bir döyüşçünün vətənə xidmət nümunələri var. Vətən uğrunda şəhid olmuş Azərbaycan övladlarının xatirəsini əbədləşdirmək və onları tanıtrmaq hər birimizin borcudur. Allah bütün şəhidlərimizə rəhmət eləsin........***

4702000000 / N098 - 2015 qrifli nəşr

© «Elm və təhsil», 2015

***Zəngilan həm öz təbiətinə görə, həm də torpaq üzərində yaşayan insanların qurduqlarına, yaratdıqlarına görə və bu günkü nəsillərə çatdırdıqları irsə görə Azərbaycanın qiymətli bir diyarıdır.***

***Heydər Əliyev***

Azərbaycan Respublikasının ən mühüm bölgələrindən biri də Zəngilandır. Bu rayon "Zəngilan" adı 1930-cu ildə verilmişdir. Onun ilk adı "Pirçivan" olmuşdur. Zəngilan rayonu Azərbaycan Respublikasının cənub – qərbində yerləşir. Bu rayonun Ermənistan Respublikası və İran İslam Respublikası ilə həmsərhəddir. Zəngilan rayonunun ümumi sahəsi 707 kv kmdir. Bu rayonda şəhər (Zəngilan), bir qəsəbə (Minçivan) və 81 kənd var.




Zəngilan rayonu respublikanın dağətəyi ərazisində yer - ləşir. Rayonu iqtisadi həyatında başlıca rolu oynayır: 29 кolxoz və sovxoz, 1 arıçılıq təsərrüfatı, 4 кooperativ və 3

кəndli-fermer təsərrüfatı var idi. Erməni işğalınadək rayon əhalisi əsasən tütünçülüklə və üzümçülüklə məşğul idi.

Rayonun ictimai təsərrüfatlarında xeyli iribuynuzlu və xırda buynuzlu heyvan vardı. Əhalinin fərdi təsərrüfatlarında mal-qara, qoyun-кeçi, arı ailəsi, meyvə ağacları olmuşdu. Rayonda quşçuluq кompleкsidə fəaliyyət göstərirdi.

Zəngilan rayonun tarixi abidə var idi. Abidələr dövlət tərəfindən qorunurdu. Xocalı kəndindən ki, dairəvi qala, Məmmədbəyli kəndində isə səkkizguşəli türbə (1304-1305) və başqaları.

Zəngilan rayonun minerallarla zəngindir:



- rayonun təbii Çinar meşələrinin sahəsinə görə planetdə ikinci, Avropada birinci yeri tutur;

- Zəngilan respublikada ərazisindən dörd bolsulu çayın keçdiyi yeganə, nadir, bir ərazidi;

- Endemik bitki növü olan Şoranyer Qarasoğanı Azərbaycan respublikasında yalnız Zəngilanda bitir;

- Qaradovşanalması yalnız Zəngilanın Ağbənd kəndində olmuşdur.

- Yalnız Zəngilan rayonun Pirçivan kəndində endemik bitki növü olan nadir Zəngilan gəvəni bitir;

- Zəngilan rayondakı Sağar dağının ətəyində göyərən Ağşüalı dağçiçəyinə ölkəmizin başqa bölgələrində təsadüf olunmur.

Zəngilan rayonu gorkəmli insanların vətənidir. Bu sırada bəzi görkəmli insaları xatırlamaq olar: Nizami Məhərrəmov (1950) Elmi texnologiyalar üzrə Rusiya elmlər Akademiyasının akademikidir. Şamil Yusif oğlu Xudiyev (1928-1999) iqtisad elmləri doktoru, professor idi. Bayram Məhəmməd oğlu Bağırov (1942) texnika elmləri doktorudur. Adilə Abbasova (1943) fizika-riyaziyyat elmləri doktorudur. Sofiq Hüseynov (1950-1997) iqtisad elmləri doktorudur. Mikayıl Heydərov (1926-1991) tarix elmləri doktoru idi.

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının Dağlığ Qarabağ ərazisi və onun ətrafındakı 7 inzibati rayonu işgal altına düşmüşdür. Azərbaycan Respublikasının əraziləri 1988-1993-cü illərdə işğal edilmiş.

Dağlıq Qarabağ: işğal tarixi – 1988-1993-cü illər, ərazisi 4400 km². (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut);

Laçın rayonu: işğal tarixi - 18 may 1992-ci il, ərazisi – 1875 km²;

Kəlbəcər rayonu: işğal tarixi - 2 aprel 1993-cü il, ərazisi - 1936 km²;

Ağdam rayonu: işğal tarixi - 23 iyul 1993-cü il, ərazisi - 1154 km²;

Cəbrayıl rayonu: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1050 km²;

Füzuli rayonu: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1112 km²;

Qubadlı rayonu: işğal tarixi - 31 avqust 1993-cü il, ərazisi - 826 km²;

Zəngilan rayonu: işğal tarixi - 30 oktyabr 1993-cü il, ərazisi - 707 km².

Beləliklə, Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikası ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. 22 ildən çoxdur ki ölkəmizdə bir milyondan artıq insan, qaçqın və məcburi köçkün şəraitində yaşayır. Işğal nəticəsində ailələrin həyatı dözulməz haldadır. Işğal olunmuş ərazilərdə yaşamış sakinlər mərdliklə, vətəni mudafiə etmişlər. Bu faciə zamanı erməni faşistlər dinc əhalini öldürməklə kifayətlənməmiş, meyitləri parçalamış, qollarını bədənlərini bir – birindən ayrmış, beyinlərini parçalamış yaralıları isə yandırmışdılar. Onlar insanlara qarşı ən vəhşi əməllər törətmişdilər. Bu işgəncələr həm böyüklərə, həm də uşaqlara və yaşlılara törədilirdi.

Zəngilan rayonu 1990-cı ildən hücumlara məruz qalırdılar. Bu hallar getdikcə güclənirdi. Ermənilər dəmir yolunu bağlayır, qatarları saxlayır, insanları girov götürürdülər. 1992-ci ilin əvvəlində isə rayonun sərhəd boyu kəndləri döyüş meydanlarına çevrilirdi. Yerli əhali torpaqlarını ov tufəngi ilə qoruyurdu. Ermənilər isə xaricdə olan havadarlarının köməy ilə mükəmməl silahlara yiyələnmişdilər. Zəngilanın işğalı əslində 1992-ci ildə gercəkləşmişdi. 1992-ci ilin yanvar ayının sonunda ermənilərin Zəngilana mütəşəkkil hücumları başlandı. Fevral ayının 1-də ermənilər Günqışlaq, Qazançı, Dərəli və Vejnəli kəndinə basqın etdilər. Tərəflər arasında döyüşlər artıq intensiv xarakter almışdı. Aprel ayının 9-da erməni silahlı qüvvələri Qazançı, Seyidlər, Dərəli, Ağkənd, Pirveyis, Günqışlaq kəndlərinə soxuldular,

evlərə od vurdular. Beləliklə, həmin kəndlər ermənilərin nəzarəti altına düşdü. Iki həftədən sonra Qazançı və Dərəli kəndləri azad edildi lakin Seyidlər kəndi mühasirədə qaldı. Bundan sonra ermənilərin növbəti hücumu iyun ayının 29-da baş verdi. Bütün yayı ərzində Zəngilan bölgəsinin kəndləri və rayon mərkəzi düşmən atəşinə məruz qaldı. Dekabr ayının 10-da Seyidlər kəndi yenidən ermənilər tərəfindən işğal olundu. Beləliklə, 1992-ci ilin sonuna doğru Zəngilan rayonun 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəkliklər düşmənin əlinə keçmişdi. Artiq bununla da rayonun işğalının əsası qoyulmuşdu. 1993-cü ildə isə döyüşlər ara vermirdi. Mart ayının 2-də Aşağı Gəyəli və Canbir kəndləri ermənilər tərəfindən işğal olundu. Iki gündən sonra Şayıflı kəndinə düşmənlərin hücumları genişləndi. Belə ağır şəraitdə çətinliklərə baxmayaraq mərd əhali təslim olmur. 1993-cü il avqust ayının 25-də erməni hərbi birləşmələri genişmiqyaslı hücuma keçirlər və daha 5 kilometr irəlilədilər. Oktyabr ayının 25-26-da Şükürətaz və Bartaz yüksəklikləri erməni işğalına məruz qaldı.



Vətən uğrunda canindan keçənlər, özlərini fəda edənlər olmürlər. Vətən yolunda canla - rınan keçən yuzlərlə şəhidlərimiz var. Onlardan biridə Zəngilan rayonunun Xumarlı kəndinin sakini Fərəcov İsak Allahvərdi oğlu.

Onu sizə daha ətraflı təqdim etmək istəyirəm. İsak Fərəcov vətən yolunda qəhrəmançasına canından keçmiş bir döyüşçü - dür. Bu cür oğullarını itirmiş

ailənin mənəvi cəhəddən güclü olması lazımdı. Muasir dövürdə hər Azərbaycan vətəndaşı onların xatirəsinin yad etməlidir.

İsak Fərəcovun həyat yolu haqqında məlumat vermək istəyirəm.

İsak Fərəcovun atası Fərəcov Allahverdi Firudin oğlu. Anası Babayeva Səkinə Məmiş qızı. Allahverdi Fərəcov Zəngilan rayonunun Xumarli kəndində, qonşu Sarıllı kəndində isə Səkinə Babayeva yaşayırdı.

Allahverdi Fərəcov bacısı ilə birlikdə qalırdı. Onun atası “Böyük Vətən” muharibəsində şəhid olmuşdu. Bacı və qardaş kiçik yaşlarından yetim qaldılar. Səkinə Babayeva da yetim idi. Onun yalnız qardaşı var idi. Qardaşı ona həm analıq, həm də atalıq etmişdi.

Allahverdi Fərəcov öz sevgisini Səkinə Babayevaya etiraf etmiş və onlar ailə qurmağa qərarına gəlmişdilər. 1956-cı ildə ailə qurulmuşdular.

Səkinə Babayeva kolxozda çalışır və pambıq yığımında fəal iştirak edirdi. Allahverdi Fərəcov isə kolxozda sürücü idi. Həmin illərdə Fərəcovlar ailəsi çox çətinliklərlə üzləşdi. Xususi ilə ən çətin qış mövsümu keçirdi.

Vahid Fərəcov ailədə ilk övlad idi, 1955- ci ildə anadan olmuşdu.

Ailənin İkinci övlad Çimnaz Fərəcova 1958–ci ildə anadan olmuşdu.

Üçüncü övlad Zahid Fərəcov, 1960 – ci ildə dünyaya göz acmışdı.

Dördünçü övlad Təranə Fərəcova 1962–ci ildə anadan olmuşdu.

Beşinci övlad İsak Fərəcov 1964 –cü ildə doğulmuşdu.

Altıncı övlad Pərvanə Fərəcova 1968–ci ildə dünyaya gəlmişdi.

Yeddinçi övlad Firudin Fərəcov 1970 – ci ildə anadan olmuşdu.

Səqqizinci övlad Səbinə Fərəcova ailənin sonbeşiyi idi və 1975 – ci ildə doğulmuşdu.

Ailədə çox uşağ olduğuna görə, çətinliklər çox idi. Buna baxmayaraq Səkinə Babayeva həm evdə, həm də tarlada işləyirdi. Pambıq yiğımında fəal iştirak etdiyinə görə Səkinə xanıma "Əmək qəhrəmanı ordeni" verilmişdi.

Uşaqlar böyüdükçə həm evdə, həm də tarlada valideyinlərinə kömək edirdilər. 1976-cı ildə rayon əhalisi üçün, çox cətin bir il kecmişdi. Həmin ildə rayon əhalisi pambıq yığımından tütünçülüyə keçdi. Tütünçülüyə keçənən sonra rayon əhalisini maddi vəziyyəti yaxşılaşmağa başladı.



İsak Fərəcov 1964–ci ilin yanvarın ayının 1 anadan olmuşdu. Deyilənlərə görə, həmin gün hava kəskin soyuq olmuş - du. Allahverdi Fərəcov öz həyat yoldaşını qonşu Alıbəyli xəstaxanasına catdırmışdı. İsak Fərəcov gün orta vaxtlarında anadan olmuşdu.

Fərəcovlar ailəsində İsak ən dəcəl uşaq idi. Onun ağlı, kamalı kiçik yaşlarından hamını təcübləndirirdi.

İsak sanki yetkin insan kimi özünü aparırdı. İsak heç bir zaman məsuliyyətdən qaçmırdı. O tanimadığı insanada hər zaman kömək etməyə çalışırdı, həməşə haqq yolunu tuturdu.

İsak bacı - qardaşları ilə 4 – ci sinifə qədər Sarılı kəndinin orta məktəbində təhsil almış, sonra isə təhsillərini Alıbəyli

kəndində davam etmişdirlər. İsaq erkən yaşlarında heç bir zaman zəyifliyini göstərməmışdi. O hər dəfə oğlanlarla savaşanda qalib gələrdi. Çəsarətli və güçlü olduğunu həməşə göstərərdi.

Motosikleti sürmək İsakın ən cox sevdiyi məşğuliyyət olmuşdur.



Motsikleti sürdüyü zaman, məhlənin bütün uşaqları İsakın başına toplaşırdılar. Əsas məsələ də o idi ki, bu gün kim İsakın sürücü yoldaşı olacaq?

İsak Fərəcovun atası 1976 – cı ildə avtomabil qəzasına düşmüş fəciyəli şəkildə həlak olmuşdu. Ailə başçısı rəhmətə getdikdən sonra Vahid Fərəcov usaqlara ata əvəzi oldu. Vahid Fərəcov ailədə ən böyük övlad olduğuna görə bütün

məsuliyyət onun üzərinə düşdü. O bacılarını və qardaşlarını ,anası ilə birlikdə boya başa çatırdı. Ailənin uşaqları şərəfli və namuslu bir vətəndaşlar kimi böyüdülər. Çətinliklərə baxmayaraq, onlar hər bir problemin öhdəsindən gəlirdilər.



Atası Allahverdi Fərəcov, anası Səkinə Fərəcova, qardaşı Vahid, bacısı Çimnaz və İsak.

1982 – ci ildə İsak Fərəcov hərbiyə xidmətə cağrıldı.

O böyuk qardaşı ilə birlikdə Bakı şəhərinə yolandı. Burda məlum oldu ki, İsak Rusiyanın İrkutsk şəhərində hərbi xidmət etməlidir. İrkutsk şəhəri Sibir olduğuna görə bərk şahtalar 40 hətda 50 dərəciyə qalxırdı. Bütün bu çətinliklərə baxmayaraq, İsak hərbi xidmətini uğurla başa vurdu. İsakın qardaşı Zahid Fərəcov İrkutsk şəhərində yaşadığına görə, ona tez – tez baş çəkirdi.



Zahid Fərəcov və
İsak Fərəcov

Gardaşının İsakla görüşməsi müyyən çətinliklərlə bağlı idi. Çünki, Isak həbsxanada dustaqlara nəzərət edirdi.

1984–cü ildə İsak Fərəcov hərbi xidməti başa vurub, vətənə qayıtdı.

O əvvəlcə təhsilini davam edir. İsak Şirvan (keçmiş Əli Bayaramlı) şəhərindəki, Yüngül Sənayə Texnikumuna qəbul olundu. İki il bu texnikumda oxuduqdan sonra elə orda, gələcək həyat yoldaşını sevdi. 1987–ci ilin yanvarın ayının 1-də onları toyu Zəngilan rayonun Xumarlı kəndində oldu.

1988-ci ildə onların ilk oğlan övladı dünyaya gəldi. İsak oğlunun adın Anar qoydu. 1990–ci ildə İsakın ikinci övladı oldu. Onun adını Anarə qoydular.



İsak Fərəcov



Anar Fərəcov və
Anarə Fərəcova

1995–ci ildə onun üçüncü övladı Tural anadan oldu. Lakin üçüncü övladın İsaka görmək nəsib olmadı.

İsak Fərəcov 1991–ci ildə Azərbaycan Respublukasının Milli Ordusuna könüllü olaraq yazıldı. Şu - şada, Laçında, Qubadlıda, Füzulidə, Zəngilanda və Tərtərdə, müharibənin ən qızğın yerlərində döyüşdü.

Döyüşlər zamanı həm düzgünlüyü, həm haqsızlığı görürdü. O öz işinə çox ciddi yanaşırdı, haqqın və düzgünlüyün tərəfdarı idi. İsak başa düşürdü ki, həyatı hər an başa çata bilər. O vətən torpağın hər şeydən üstün tuturdu. İsak müharbənin ən qızğın ərazələrində geriyə baxmayaraq, öz cəsarətini, qorxmazlığını göstərirdi. İsakın döyüş yoldaşları sözlərimizi təsdiq edirlər.

Mən İsakın döyuş yoldaşlarını axtarıb, tapdım. Onların hər biri İsakın necə doyüşdüyünü, vətən yolunda canından keçdiyini, cəsur, qeyrətli insan olduğunu sübut etdilər. Onların hər birisi ilə danışdım, görüşdüm. Və onlar canlı şahiddilər. Axtarış zamanı İsakın döyüş yoldaşı Abdulayev İlyas Huseyn oğlu ilə tanış oldum. İlyas Abdulayevin köməyi ilə İsakın döyüş yoldaşlarını tapdım və biz belə bir qərara gəldik ki, onları toplayıb bir yerdə göruşək. Bu göruş 2014-cü ilin dekabr ayın 6 – da Bakı şəhərində yerləşən Zəngilan məktəbində keçirildi.

Bu məktəbdə İsakının komandiri Hacıyev Sabir Rəşid oğlu, hərbi təlim müəllimdir. Həmin görüşə gəlmişdilər:




Xəyal Gülmaliyev, İlyas Abdulayev, Namiq Əzimov, Sahib Nəsirov, Camal Həmidov, Hafis Humbətov, Sabir Hacıyev, Baloğlan Mirzəyəv və İsakın bacısı Pərvanə xanımla

Həmin gün bu məktəbdə tədbir keçirilirdi. Bu tədbir hər ilin dekabr ayında keçirilir. Həmin tədbir Zəngilan rayonunun işğalı ilə bağlıdı. Sabir Hacıyev bu döyüşçülərin komandiri olduğuna görə, hər zaman onun hörmətini saxlayırlar.

Sabir Haciyev 1957–ci ilin martın ayının 14–də Zəngilan rayonunun Şayıflı kəndində anadan olmuşdur.

O könüllü dəstəsinə 1991 – ci ildə yazıldı. Öncə də söz verildi Sabir Hacıyevə. Sabir Hacıyevə dedi:

- Biz hər il keçiririk bu tədbiri. Biz yaşadıqca bu tədbirlər davam edəcəkdir. 1992 – ci ilin dekabr ayının 9 – da ermə - nilər Zəngilan və Qubadlı rayonlarına hücuma başladılar. Düz yay ayına qədər erməni düşmənləri bu rayonlara od



yağdırdılar. Bu heç vaxt bizim yadaşımızdan çıxmaz. Bu döyüşdə rəhmətə gedənlərin, hər birisinə rəhmət diləyirəm. Yaşından asılı olmayraq hər birimizin ölənləri, şəhidləri var. Onlanların dəfn mərasimi düşmən tapdağı altında, qaldığını ürək ağrısı ilə xatırlayırıq. Heç bir zaman, bunu unutmaq olmaz.

Əziz və hörmətli döyüşçülər. Mən sizi görəndə, mənə qüvvə gəlir. Sizinlə keçirdiyim ağır günlər yadıma düşür. Allah sizin canınız sağ eləsin. Mən sizə çox minətdaram. Biz bu anları gözümüzlə görmüşük.

Danışmalı sözün çox və yaxud az olduğunu bilmirəm. Kaş ki, öləydim, keçdıyim bu acı günlərimizi görməyəydim. İsakı, mən hamıdan yaxşı tanıyıram. Müharibə ölum, qan deməkdir. Xocalı soyqrımından sonra biz ürəklə döyüşməyə başladıq.

Bizim Şayıflı kəndində," İsmayıl" adılı maşınist köməkçi var idi. Onun Ordubad yolunda, Mərdiyə kəndində gələndə, Ermənlər doğram- doğram edib, sonra isə yorğana yığıb, bızə göndərmişdilər. İsmayılın həyat yoldaşı ağlaya - ağlaya bizə demişdi:

"- Ay Şayıflının igidləri! Halıma acıyırsınızsa, silaha sarılın. Ermənilərdən bacı – qardaş qisasını alın."

Belə hadisələrin sayı hesabı yoxdur. Bunu gözlə görmək bir dəhşət idi. Bu qollarımda pələng kimi igid oğlanlarımız can verib. Bu hadisələr, döyüşçülərimizin gözlərin garşısında baş verib. İnsan bu dəhşəti unuda bilər mi?

Zəngilanın Seyidlər kəndi, düşmənin topunun, gülləsinin altinda idi. "Qrad" qurğularında açılmış atəşlər, 6 bal zəlzələ gücündə idi. Indi təsəvvürünüzə gətirin, bu atəşdən sonra bu kənd nə günə düşə bilər. Dağdan 200 litirik lülələrə, partlayıcı maddələr doldurub, Seyidlər kəndinə boşduyurdular. Bu lülələrdən biri kazarmanın içində partladı. Lakin doyüş - çülər özlərini itirmədilər. Həmin doyüşcülər ki, bu gün artıq onlar yaddan çıxıb. Əli silahı tutmamış əsgərlərimizin müharibə haqqında heç bir anlayışı yox idi. Cəbhəyə belə bir əsgərlər göndərilmişdi. Lakin cəbhədə savadlı hərbi kadırlarımızda var idi. Ağa Səfiyarov, Barat müəllim. Bu cür kadır - lar misal ola bilər. Ali məktəbləri bitirmiş yüzlərlə oğullarımız var idi. Heç birimizin tanımadığı Bakı əsgərləri gəlmişdilər. Coxumuzun tanıdığımız Hüseyn Dəriyədə cəbhədə döyüşürdü. Çox cəsarətli döyüşcülər idilər. Bizim tanıdığımız Saleh Məmmədov hal - hazırda, "Xaricə Enerji" satış idarə - sinin rəisidir. Ermənilər onun anasını vəhşicəsinə və işgəncə ilə öldürdülər. Onlar yaşlı insanları, dil bilməz uşaqları, qoca - ları işgəncəylərlə öldürürdü. Ermənilər insanları öldürür, sonra isə meyidlərini tanka qoşub sürüyürdülər. Bu çox dəh - şətli hadisə idi. Biz həmin hadisələri gözümüzlə görmüşük.

Ermənilər Şayıflı kəndində Qara Seyidin oğlu Həsəni, evinin qarşısında, odun üstündə yandırmışdılar. Ermənistandan gəlmiş bir necə nəfər, Seyid kişini işgəncə ilə öldürmüşdülər. Təssüf ki, onların meyidləri düşmən tapdağı altında qaldı.

1992–ci ildə, yüzlərlə əsgərlərimizin qeyrətli oğlanlarımızın, qəbirləri işğal olunmuş Zəngilanda qaldı. Zəngilanda Şəhidlər Xiyabanı açmışdıq. Mənə o günləri xatırlamaq çox çətindir. Bu günlər yaddıma düşdükcə özümdə ola bilmirəm.

İsaknan mənim tanışlığım Şayıflı kəndində olub. İsaka xüsusi hörmətim var idi. Onun haqqında danışmaq mənə çox ağır gəlir. O, belə ağır döyüşlərdən çıxdı, gedib Tərtərdə şəhid oldu. Tərtərdə, camaat İsaka, “rembo” adını vermişdilər.

Naxçıvanla və Ermənistan sərhəddində Əliyəz kəndi yerləşir. 199 –ci ildə Əliyəz kəndində topu vurmağında İsak öz məharətini göstərmişdi.O topu bomba atan silahı ilə vurmuşdu. Təssüf ki, həmin o döyüş yoldaşlarımızı tapmaq çox çətindir. Elə döyüşçülər var ki, şəhid olublar, eləsidə var ki, sağdı, hərəsi bir rayondadır. İsak cəsur, qorxmaz, qeyrətli, namuslu vətənə layıq bir oğlan olub. O zaman gecələr postda duran doyüşçülərimiz, gündüzlər yatıb dincələrdilər. Amma İsak gündüzü də, gecənidə bizmlə birlikdə olurdu. O zaman əsasən səngər döyüşlər baş verirdi. Ermənilər hücuma keçəndən sonra vəziyyət dəyişirdi. Bizim Şayıflı döyüşçülərimiz ələrindən gələni əsirgəmədilər. Onlar düşmənə layiqincə müqavimət göstərirdilər. Ağkəndə, Seyidlərdə, Tridsatıyda, Şərkəndə, Ördəklidə və digər kəndlərində Zəngilan batalyonunda xidmətində ən çox Neftçala, Qazax, Ağstafa rayonlarından olan döyüşçülər gəlmişdilər.

Zəngilan döyüşcüləri Füzuli rayonunda ən gərgin döyüş - lərdə olmuşdular. Zəngilan şəhidlərimiz ən yüksək ada layıq-

dılər, o cümlədən İsakda . Heç vaxt biz onu unutmarıq. Onun haqqında əsər, dastan, yazmaqda azdır. Çünki vətən uğrunda şəhid olub.

Hörmətli Prezidentimiz şəhidlərimizə xüsusi qiymət verir. Onlar üçün əbədi uymaq Şəhidləri Xiyabanı ayrılıb. İsak tək deyil. Isak kimi minlərlə şəhidlərimiz var. Zəngilan rayonunun Cambar kəndi var idi. Cambar kəndinin əhalisı hələ kənddən cıxmamışdı. Düşmənin qəfil hücumu zamanı, İsakı atdığı qumbaralarla, döyüşü bir az saxlıyıb ki, Cambar kəndinin əhalisinin çıxmasını, əsir duşməməsini təmin edib. Bu faktıdır. Belə bir hadisədə oldu:

Ağlımıza gəlməyən bir yerdən, erməni tankı bizim üstü - müzə gəlmişdi. Yəni inanmazdığ ki, erməni tankı burdan gələ bilər. Bu tankı İlyas Abdulayevin və İsak Fərəcovun köməyi ilə vuruldu. Bu insan haqqında  mən saatlarnan danışa bilərəm. Müharibədə olmak, bu dəhşətləri gözlə görmək, sizə asand gəlməsin. Bəzən gecələr səngərdə duran əsgərlərimiz vahiməli səslər eşidirdilər. Bu səslər insanı dəhşətə gətirirdi. Ana babam deyirdi ki:

-“Müharibədə ölüm gələndə, bir vahiməli səslər eşidilir”.

Tez yadıma saldım ki, bu hemin vahiməli səsdir. Rotamda olmuş döyüşçüləri hər zaman bir-birinə arxa olmuş. Allahın köməyi ilə Prezidentimiz ədalətli haqqımızı sülh yolu ilə həll edər. Inşallah!

1994 – cü ildə Ermənistan Azərbaycan müharibəsində atəşkəs elan olduqdan sonra, Sabir Hacıyev müharibədən ayrıldı. Hal - hazırda Qarabağ müharibəsi veteranıdır.

Söhbəti Mirzəyev Baloğlan İsmayıl oğlu davam edir.

Baloğlan Mirzəyev 1971–ci ildə Zəngilan rayonunun, Ağala kəndində anadan olmuşdur. Baloğlan Mirzəyev dedi:

- Mən 1992–ci ildə Zəngilan rayonunda ilk hərbi xidmətimi keçirdim. Elə o ili, yəni 1992–ci ildə İsakla tanış oldum. On -



dan çox şeyləri öyrəndim və təcrübə topladım. Silahdan istifadə qaydalarını öyrəndikdən sonra döyüşlərdə iştirak etməyə başladım. Zəngilan rayonunda gərgin döyüşlərimiz oldu, cox itkilər vermişik. Bəzən şəhidlərimizin sayın bilmək olmurdu. Həqiqətən çox döyüşçümüzü itirdik. Zəngilan rayonunun Şayiflı kəndində İsakla birlikdə postda dururduq. Xəbər gəldi ki, Cəbrayıl və Qubadlı rayonları erməni işğalına məruz qaldı. Bu bizim üçün gözlənilməz xəbər idi. Döyüşçülərimizin bir qismini Cəbrayil rayonuna apardılar, bizi isə Zəngilan rayonunda saxladılar. Mən və İsak Cəbrayil rayonuna getmək istədik, lakin aparmadılar. Bir gün həyəcan siqnalı verildi. Zəngilan rayonunun Alıbəyli, Sarılı, Xumarlı, Məmmədbəyli, Ağalı bu kəndlərin döyüşçülərini yığdılar. İki maşın döyüşçü olduq. Şayiflı kəndinə getdik Məmmədbəyli kənd məktəbinin yaxınlığında maşını saxladılar. Axşam idi. Gördük ki, maşınlar bir – birinin arxasınca gedilər. Nə baş verdiyini soruşduq, bizə cavab verdilər ki, artıq Qubadlıda erməni tərəfindən işğal olunub.

Qubadlı batalyonu, artiq Qubadlıdan çıxırdı. Biz Qubadlı rayonun Zilanı kəndinə gətirdilər . Mahruslu kəndinə döyüşə - döyüşə gəldik. Tanınığ kəndi ilə Mahrus arasında ermənilər yerləşmişdilər. Biz orada İsakla 14 erməni maşınını ələ ke-

cirdik. Hər gün 10 nəfər erməni mülki şəhsini, hərbiçisinin öldürürdük. İki nəfər erməni traktoristlər tutmuşduq. Onlar qarətə gəlmişdilər. Cəbrayıl Dağtunası kəndində tütünlük sahəsi var idi. Biz orda döyüşçülərlə postda dururduq. Sonra İsaknan "Göranda" da bir yerdə döyüşmüşük. İsaknan çox yerdə birgə döyüşmüşük. 1993–cü il idi bu hadisələr Zəngilan işğalında öncə baş vermişdi. Həmən dövürdə zaman hissini unutmuşduq. Yəni başımız tamam qarışmışdı.

Biz İsakla Füzulini Əbdürrəhmanlı, Seyidəhmədli, Şükür - bəyli, Kürdmahmutlu kəndlərində döyüşcülərdə olmuşduq. Çox gərgin döyüşülərimiz olub. Bu kəndlərin hər birində döyüşmüşük. Hər yerdə deylirdi ki, Zəngilan döyüşçülərı "quduz canavardılar". Həqiqətən də Zəngilan döyüşçüləri 702 - ci hərbi hissə seçilirdilər. Harda qızğın döyüşlər olurdusa , biz orda iştirak edirdik. Bəzən gündə elə olurdu ki, iki dəfə hücüma keçirdik. Hətda elə istəyirdim ki öləm, canım hər şeydən qutarsın, bu dəhşətləri görməyim. O qədər belə acılı bəzəndə ruhlandıran vaxtlarımız olub. Bir gün Füzili rayonunun Aşağı Seyidəhmədli kəndinə hücum etmişdik. Bizim rota üç yerə bölünmüşdü, müxtəlif istiqamətdən ermənlərə hücum edirdik. Sən demə rotalardan bir erməni rotayımış. Ermənilər bizimlə bərabər öz soydaşlarına hücum etmişdilər. Sonra şəhidlərimizi daşıyan zaman, onların ciblərindən çıxmış sənədlərə baxıb gördük ki, bizə yardım edənlər erməniymişlər. Hamı başını itirmişdi. O zaman, o qədər pəran pəranlik düşmüşdü ki, hamı başını itirmişdi, heç bilimirdi kim kimə atır.

İsakda, məndə çox yaxşi bomba atan silahdan atəş açırdıq. Rəhmətlik İsak demək olar ki, topdan, avtomatdan bütün silahlardan istifadə etməyi baçarırdı. Biz xeyli düşmən topunu, tankını lazım olan erməni mövqeylərini məfv etmişik. O qədər erməni əsir tutmuşuğ, xeyli erməni öldürmüşük.

İsakın həqiqətən də əziyyəti çox olub. O əsil qəhrəmana layiq hərəkət edib. Biz şişirtmə danışmırıq, ən azını danışırıq, çoxunu yox. Buna görə də insan əziyyət çəkir. Allah rəhmət eləsin hər bir şəhidlimizə... Belə bir hadisə olmuşdu:

Hücum zamanı döyüşçülərimizdən biri rəhmətlik Cəmşıd qolunan, ayaqınan yaralanmışdı. Onu götürə bilmirdik özümüzlə. Artıq yorulmuşduq, apara bilmirdik. Onu öldürmək fikirinə düşdük ki,düşmən əlinə keçməsin deyə.

Çəmşıd isə demiş:

- "Baloğlan mən də Zəngilaniyam, Bartazdanam, məni tanımırsan? Məni burada qoymayın".

Düşündüm ki, "ölsəm də, səni burada qoymaycağam". Ermənilər bizə çox yaxın məsafədə idilər. O qədər yaxın idi ki, əl qumbarası atırdılar bizə. Cəmşidi götürdük çıxartığ.

Şəhid olmuş döyuşcülərimizə Allah rəhmət eləsin.... Kirvəmdə gözümün qarşısında öldü. Elə bilirdim ki, biz də ölməliyik. Biz ölümə adi bir gerçəklik kimi alışmışdıq.

Mən heç bir yığıncağa getmək istəmirəmim. Bu döyüş - çülərnən yenidən görüşmək istəmirdim. İstəmirdim ki, həmin həyat birdə yadıma düşməsin. Qanlı, qadalı günlər bir də xatırlanmasın.

Belə bir hadisə olmuşdu:

Mən bir şəhidin Bəhlulu meydini gətirəndə boyumnan qan duz çəkmələrimin içinə dolub, yerə tökülürdü.

Zəngilan rayounun Alıbəyli kəndində "Muqabil" adlı bir şəhidin meydi qalmışdı. Erməni tərəfindən, gecəykən gedib onun meydini tapıb gətirdik. Onu ayağıma bel kəməri ilə bağlayıb sürünə - sürünə çəkirdim. Baş qaldırmaq mümkün deyildi. Gördüm ki, artıq ermənilər az qala üstümüzə çıxırlar. Saldım meyidi çalaya, üstünə isə daş yığdım. Şəhidin qardaşına dedim ki, onun yerini yalnız mən bilirəm. Sonra üç gündən sonra gedib tapıb gətirdik.

Mən heç evə gətmək istəmirdim. Evə gələndə isə qardaşım mənə deyirdi ki:

- “Evə girmə, nənənin ürəyi partlayar”.

Məndən meyid iyi gəlirdi. Qan bədənimizdə qalaraq iylənirdi.

Bir azdan söhbətə İlyas Abdulayev qoşuldu.

- Baloğlan, siz Füzuli rayonunun Seyidəhmədli kəndi istiqamətində olarkən mən Haramı düzündə 161 – ci rotada idim. Belə bir məlumat gəldi ki, general Salahov Seyidəhmədli istiqamətində general Bayramovdan kömək istəmişdi.

Rza Quliyev demişdi:

- “Bu döyüşə könüllü gəlmək istiyən var mı?”

Bu sualın cavabında mən irəli çıxdım. 704 saylı rotadan iki tankı və üç BMP – ni (Piyadaların döyüş maşını), özümlə götürdüm. O zaman Azer Əhmədov orada mexanik, sürücü idi. O da bizimlə birlikdə idi. Getdik Seyidəhmədli tərəfə, 701 ştabın ``Quru çaya`` yaxın idi. Mən Şükürbəyliyə qalxanda Yaşar Aydəmirov “NİVA” ilə qarşıma çıxdı.

Yaşar dedi ki:

- “Atəşkəs elan olundu”. Artıq orada çox böyük itkilər olmuşdu.

Söhbəti Mirzəyev Baloğlan davam edir:

- İsakla bir yerdə çox döyüşlərdə olmuşuğ. İsak mərd oğ - lan idi. Gözəl insan, qardaş, dost və çox ürəkli idi. Biz post-dan- postdan bərkimişdik. Allah Rəhmət eləsin....

Nə İsak, nə mən, nə də digər döyüş yoldaşlarım ermənilərdən çəkinmirdik. Biz inamazdıq ki, ermənilər bizim ərazilərimizi ələ keçirə bilər. Erməni bizim əsgərlərmizi görəndə, qorxurdular.

Döyüş zamanı bir şəhidimiz öləndə, dayanıb baxmırdıq. Yalnız irəli gedirdik, döyüşürdük.

Isakla birlikdə Qubadlıda baş vermiş ağır döyüşlərdə olmuşuq. Qubadlıda bir ay qaldıq. Bu bir ayın hardasa irmi gününü - Xanığın kəndində döyüşmüşük.

Yolları bağlamışıq, gələn ermənilləri qırırdıq.

Bizim komandir deyirdi:

- “Ermэni meyidlərini göndərməyin, onlarl diri – diri göndərin”.

Mən adi qəbiristanığa və Şəhidlər Xiyabanına gedəndə ürəyim paramparca olur. Mən oraya girə bilmirəm. Özumdən asılı deyil. Oraları ziyarət edəndə, gözümün yaşı dayanmır, özümdə olmuram. Elə bilirəm ki, həyat mənim üçün yoxdur. Onlar cəbhə yoldaşlarımız, qardaşlarımız olmuşlar. Allah Şəhidlərimizə qəni - qəni rəhmət eləsin. ..... Biz onların qədrini bilməliyik. Onların keçdikləri yolları, biz də keçmişik. Şəhidlərin yerində biz də ola bilərdik.......

Vaxtı ilə 1941 – 1945 illərin “Böyük vətən müharibəsindən” gələnlərə, əyri baxılırdı ki:

“Görəsən harada gizlənib, salamat qalıb, döyüşənlər isə ölüb”. Hər kəsi Allah saxlayır. Əgər insanın son anı gəlmirsə, gülləni başına sıxsan da ölməz.

Kontuziya olmuşdum, 1994–cü ilin yanvar ayının sonunda, Saatlı hospitalında yatırdım. Sonra evə gəldim, burada bir həftəyə qədər dincəldim. Anamgil özünü öldü rứdülər ki, yenidən müharıbəyə getməyim. Lakin məni heç kim saxlaya bilmədi, yenidən cəbhəyə yollandım.

Sonra evdəkilər məndən bir müddət xəbər almadıqlarına görə elə biliblər ki, ölmüşəm. Onlara kimsə demişdi ki, Baloğlan ölüb və naməlum kimi basdırılıb.Yanvarın ayının yeddisində qardaşlarım “Peyğəmbər qəbristanığında” mənim qəbrimi axtarmışdılar. Onlar da çadır qurmuş, ehsan vermişdilər.

Hər bir şəhidin öz haqqı var. Onlar daim yaşayırlar. Onları unutmaq olmaz.

Mən Baloğlana sual verdim:

-“İsakın rəhmətə getdiyini nə vaxt eşidiniz?

O cavab verdi:

- Biz Zəngilanda, sonra isə Füzulidə bir yerdə döyüşdük. Biz 702 – ci rotada idik sonra isə gedib çıxdım 706 – cı rotaya. İsakın ölüm xəbərini eşidənən sonra çox təssüflən- dim.......

Elə əsgərlər var idi ki, qorxurdular. Onlar heç düşmənlə qarşılaşmaq istəmirdilər. Biz öyrəşmişdik, qorxmurduq. Niyə qorxmurduq? Ona görə ki, biz köhnə döyüşçülər müharbəyə alışmışdıq.

Bir arzum var ki, Zəngilanda bircə gün də olsada yaşayım, havasını udum, çörəyini yeyim. Ondan sonra ölsəm də arzum olmaz. Mən vətənimi , torpağımı o qədər sevirəm ki, əgər lazım olsa yenidən gedib döyüşərəm. Mənim 85 yaşlı bibim var idi . O məni yanına çağırmış və demişdir:

- “Baloğlan, mən Zəngilanı görəcəyəm mi ?!”

O qədər unudulmaz ürəyimi yandıran sözlər var ki! Ölənlərimizin hər biri Zəngilan həsrəti ilə dünyadan köçüb. Onlar oğlunun, qızının, nəvəsinin dərdin çəkmir, Zəngilan həsrəti ilə yaşayırlar. Hamısıda deyib:

- “Görəsən, Zəngilanı görəcəyəm mi?!”

Bu arzu onların iç dünyasındadır. Allah ermənilərə lənət eləsin........

Bu məqamda Baloğlan susdu.

Sözünü deyəndən sonra onun gözlərinin içinə baxdım. Onun gözləri yaşla dolmuşdu. Bir kəlmə söz desəydi, gözlərində yaş tökülərdi. Mən Baloğlan müəllimə heç bir sual vermədim susdum. Bu duyğulari bir az da onlarnan birlikdə yaşamaq, istədim. Onların danışdıqlarını bir anda gözlərimin qarşısında canlandırmaq məni dəhşətə gətirdi. Bizim yüzlərlə belə qeyrətli oğlanlarımız şəhid oldu. Baloğlan müəllim Allah sizə can sağlığı versin. Dediyiniz həmin arzularınıza çatasınız.



O, 1995–ci ildə mühari - bədən azad olunmuşdu. Hal hazırda Qarabağ mü - haribəsi veteranıdı.

Söhbəti Abdulayev İlyas Huseyin oğlu davam edirdi. 1973-cü ilin mart ayının 21 Zəngilan rayonunun Həkəri kəndində anadan olmuşdur.

Ilyas Abdulayev dedi:

- Mən 1992-ci ildə kö- nüllü batalyona yazıldım. Orada İsakla tanış oldum. Zəngilan rayonunun Seyid - lər, Aşağı Gəyəli,Tridsatıy (otuzun – çu) kəndlərində, Nalbənd dağın ətrafında baş vermiş döyüşlərdə İsakla bir yerdə döyüşmüşük. 1992-ci ilin dekabır ayında belə bir hadisə olmuşdu:

Səhər yenicə acılmışdı. Ermenilər vertolyotla hücuma keçmişdilər. İsakın «BTR» maşinından açdığı ateşə həmin, vertolyotun istiqamətini dəyişmişdi. Əgər İsak bunu etməsə idi ,vertolyotu bizim üstümüzdən kenarlaşdırmasa idi, çox böyük bir itkilər verə bilərdik.

“Tridsatıy“ kendinə gətirilən “Zenit” vertolyotvuran silahı , yalnız İsak atmağı bacarırdı. O hərbiyə o geder bağlı insan idi ki, tanıdığı hər kəs ona siğınırdı. Əsas mövqeylərimiz Zəngilan rayonunun Tridsatıy, Aşağı Gəyəli, Qazançı,Cam-bar,Seyidler kəndiləri və Nalbənd istiqaməti idi.

Belə bir hadisə olmuşdu:

Hücum zamanı, ermənilər bizim “Seymur” adlı əsgərimizi, əsir düşmüşdü. Və onun Şayıflının Bürünlü kəndində, əsir saxlayırdılar.



Abdulayev İlyas, əsir düşmüş esgər Seymur

İsak dedi ki:

- "Onu əsirlikdən azad etmək lazımdi".

Mən, Namiq Əzimov, İlham Həsənov, Sabir Hacıyev, İsak Fərəcov, Qafar Həsənov və daha 15 nəfər əsgərimizin Bürünlü kəndinə yollandıq. Bürünlü kəndi qəbiristanın aşağı tərəfində idi. Hamıdan irəlidə, İsak gedirdi. İsak Bürünlü kəndin bizdən əvvəl çatdı. Gördük ki, əsir duşmüş əs - gərimiz yerdə çabalayır, can verir, bu dəhşətli bir sahnə idi. Erməni faşistləri esgərimizin yanaqlarını kəsmiş, gözlərini çıxartmış, müyyən orqanlarını kəsmişdilər. Əsgər diri – diri cabalayırdı, yəni can verirdi. Isak bu dəhşətli səhnədə qəzəblənərək, qışqıraraq 30 güllənin 30 – nu da, erməni feldşerinin bədəninə boşaltdı.

Biz ona dedi ki:

- "İsak, belə etmə".

Isak cavab verdi:

- "Nə danışırsan? Belə vəhşilik, olar mi?!"

İsak ölümdən qorxan olmayıb. O qorxunun nə olduğunu bilməyib. Düzdü ölüm insanı qorxudan bir şeydir. Isakda "ölərəm", "mənə güllə dəyər" belə bir hisslər yox idi. O çox mərd insan idi.

Belə bir hadisə də olmuşdu:

1992–ci ildə Zəngilan rayonunda Seyidlər postunda durmuşduq. Üç gün idi ki, atışma dayanmırdı. Yağış isə

dayanmadan yağırdı. Hər tərəfdə gölməçələr yaranmışdı. Yatmağa, durmağa yerimiz yox idi. Üç gün idi ki, yemək yemirdik. Çəyməmizin batıq yerində yığılmış yağış suyu ilə ağzımızı yaxalayırdıq. Səngərdən çixmaq isə mümkün deyildi. Ermənilər hər tərəfdən atəş acırdılar. O zaman rəhmətlik İsak və 5 nəfər əsgərimiz bizə ərzaq gətirdi. Bizə onu Allah yetirdi. Inanın ki, İsak həmin ərzağı getirməsəydi, heç kəs o səngərdə galmayaçaqdı. Heç kimi saxlaya bilməzdik. Şayıflıdan Həsən Osmanov adlı bir döyüşçümüz var idi. Ölüm vahiməsi Həsən Osmanovu o qədər basdı ki, o pulemyutu götürüb bizə tərəf yönəldib dedi:

- "Ə, bizi qıracaqlar eee."

Qışqıra – qışqıra əsgərlərimizə ateş acmağa başladı. Bu məqamda İsak arxadan özünü yetirdi. Həsən Osmanova yumruq vurub, silahı əlindən aldı.

Və ona qişqırdı:

- "Ə əclaf, səni kim öldürəçək? Sən camaatı öldürürsən. Erməni səndən 150 metr aralıdadır . Hanı ermənı?".

Əgər İsak orada olmasaidi, biz dünyadan köçmüşdük. Müharibə meydanında hər bir döyüşçü baş aça bilməz. O zaman çoxları döyüşməyi baçarmırdı. Bizim batalyonun, əsgərləri isə artıq döyüşlərə alışmışdılar.

1992–ci ildə Zəngilan rayonunun Seyidlər kəndində "Sovxoz" adlanan bir yer var idi. Həmən yeri ermənilər ələ kecirmişdilər. Hücum zamanı ermənilər geri çəkildilər və biz oranı ələ keçirdik. Sonra isə ermənilər əks hücuma keçirdilər. Xəyal Gülmalıyev "BMP" hərbi maşını ilə erməni BMP –sinin qarşısına çıxdı. Düşmən elə bilmiş ki, bizim "BMP" hücuma keçir. Lakin Xəyal BMP- ni geriyə çəkdi və erməni BMP – si açıqlığa çıxdı. Düşmən maşını açıqlığa çıxanda onu topdan atəş açtım. Əgər Xəyal Gülmalıyev, rəqibi aldatmasaydı, mən onu vura bilməyəçəkdim. Bu

maşını ardınca gələn “ekarus” avtobusuna da atəş açdım. Ermənilər bu avtobusla ”Qafandan” gəlib hücum yerinə tökülüşmək fikirində idilər. Bu vaxtı onları da məfv etdim. Bu fakt olan hadisədi. Orada mənimlə bərabər döyüşürdülər: Namiq Əzimov, Sabir Haciyev, Sahib Nəsirov, Gülmalıyev Xəyal, İlham Həsənov, Ağakişiyev Ağakişi . Bu döyüşçülərin çoxu şəhid olublar. Allah rəhmət eləsin.....

Bu hadisədən sonra 1992 – ci ilin aprel ayının 29 – da atəşkəs elan olundu. Ermənilər icazə istədilər ki, BMP- də və avtobusda ölmüş əsgərlərin, meyidlərini götürsünlər. Bizim tərəf razılaşdı. Meydləri aparandan sonra, ermənilər “Qafan” şəhərində dəfn mərasimi keçirdilər. 1992 – ci ilin aprelin ayının 29 - da səhər postu yoxlamağa çıxmışdım. Mənim bir köhnə binokulum var idi. Həmin binokla “Qafan” istiqamətinə baxanda gördüm ki, qəbiristanlığ ermənilərlə doludur. Dəfn mərasimi keçirilirdi. Onda həyaçan səsinin verilməsi əmrini verdim. Bütün döyüşçüləri ayğa qaldırdım.



Abdulayev İlyas və onun döyüş yoldaşları

Batalyonumuzun döyüşçüləri qoymadılar ki, oradan nə bircə erməni, nə də bir maşın çıxsın. Top atəşləri qəbiristanığın altını üstünə çevirdik. Qəbiristanlığa düz 85 mərmi atdım. Bundan sonra məni rota komandiri təyin etdilər. Mənə 1300 manat mükafat da verildi. 1300 manatı 12 nəfər arasında böldük.

Rotamız 12 nəfərdən ibarət idi. Sonralar batalyonumuzu Qubadlı alayı ilə birləşdirdilər. Orada mənim şəxsi işimə baxdılar və gördülər ki, tankçıyam.



Ilyas Abdulayev və onun döyüş yoldaşları

Məni texnika üzrə rota komandir təyin etdilər. 1993–cü ildə Qubadlı ərazisində, düşmənin bir mayoru və praporşiki əsir tutdum. Mənə 2500 manat mükafat verildi. ......

Bu məqamda İlyas Abdulayeva dedim:

- Sizdən xahiş edirəm bu hadisə haqqında daha ətraflı danışın.

İlyas Abdulayev:

- Erməni mayoru və praporşiki yolarını azmışdılar. Bizə məlumat verildi ki, ermənlər hücuma keçiblər. Artıq qaranlığ düşmüşdü. Səbuhi Hüseynovla və Həşimlə birlikdə BMP ilə onların qarşısına çıxdıq. Bu ermənilər "UAZ" maşını ilə gəlirdilər. BMP – dən birbaşa "UAZ"–ın üstünə cıxdım. BMP – nin lukunan özümü tuladım yerə. Gördüm ki, ermənilər özlərini itirdilər. Erməni sürücüsü avtomatı götürüb məni vurmağ istəyədə, mən onu güllələdim. Tez silahnı əllərindən aldım, mayoru və praporşiki əsir götürdüm. "UAZ" maşınını BMP – nin arxasına qoşduq və geri qayıtdıq. Bu əməliyyıatdan sonra mənə leytenant rütbəsi verildi.

ХАСИЈЈӘТНАМӘ

Верилир с-т Абдуллајев Илјас Һүсејн оғлуна ондан өтрү ки, һегигәтән о, 865 N-ли һәрби һиссәнин танк бөлүјүндә гуллуг етдији мүддәтдә өзүнү мүкәммәл бир дөјүшчү кими ҝөстәрмишдир. Абдуллајев Илјас Һүсејн оғлу 01.06.92-ҹи ил тарихдән Азәрбајҹан Силаһлы Гүввәләриндә гуллуг едир. Бу мүддәтдә о дәфәләрлә ермәни ишғалчыларынын һүҹумуну дәф етмәкдә иштирак етмишдир. Онун шүҹаәтләрини нәзәрә алыб 01.08.93-ҹү ил тарихдә Мәркәзи Забитләр Курсуна ҝөндәрилмишдир.

Лакин 22.08.93-ҹү ил тарихдә регионда вәзијјәтин кәскин һал алдығы үчүн, јенидән 865 N-ли һәрби һиссәнин нәздинә гајытмыш вә Ҹәбрајыл, Губадлы, Зәнҝилан регионларынын мүдафиәсиндә јахындан иштирак етмишдир.

Һал-һазырда Губадлы рајонунун Маһрузлу кәндинин мүдафиәсиндәдир. О, дөјүш вахты ермәниләрин УАЗ маркалы бир машынын, бир мајору вә бир прапоршики ҝәтирмишдир. Ермәни ордусунун һүҹумларыны дәф етмәкдә онун да јахындан иштиракы вар. О, ермәни техникасынын вә ҹанлы гүввәсинин мәһв едилмәсиндә иштирак етмишдир.

ТАНК БӨЛҮЈҮ КОМАНДИРИ Р. ИБРАҺИМОВ

ХИДМӘТИ ХӘСИЈЈӘТНАМӘ.

Верилир 1973-чү ил март ајынын 21-дә Зәнкилан Рајонунда анадан олмуш, орта тәһсилли әввәләр мәһкум олунмамыш азәрбајчанлы Абдуллајев Илјас оғлуна

Ондан өтәри ки, о һәгигәтән 1991-чи илин јанвар ајынын 01-дән Азәрбајчан силаһлы гүввәләриндә хидмәт едир.

К Л-НТ Абдуллајев Илјас һүсејин оғлу илк дөјүш јолуну Лачын рајонундан башламышдыр. Илк дөјүшдән О, өзүнү чәсур бир забит кими көстәрмишдир. О, рајонун стратежи әһәмијјәтли јүксәкликләринин әлә кечрилмәсиндә фәал иштирак етмишдир. Бу дөјүшләрдә о нәхси икидлик, шүчаәт вә гәһрәманлыг нүмунәләри көстәрәрәк өз зиреһли техникасы илә дүшмәнин бир нечә зиреһли техникасыны вуруб сырадан чыхармышдыр.

О, тәкчә Лачын рајону јох Азәрбајчанын дикәр Губадлы, Зәнкилан, Ағдам вә Фүзули рајонлары уғрунда кедән дөјүшләрдә иштирак етмишдир.

К Л-Нт: Абдуллајев Илјас һүсејин оғлу 1996-чы илин јанвар ајынын 1-дән 706 сајлы һәрби һиссәнин кәшфијјат бөлүјүндә хидмәт едир. Бу мүддәт әрзиндә о, бир нечә дәфә дүшмән постунун архасына кечәрәк, дүшмәнин лазылы сирләрини өјрәнәрәк јухары командалығына чатдырмышдыр. Елә мәһз буна көрә дә О, бир нечә дәфә јухары командалығын јазылы тәшәккүр вә мүкафатф илә тәлтиф олунмушдур.

К Л-НТ Абдуллајев Илјас һүсејин оғлу тәкчә һәрби хидмәтләринә көрә јох һәм дә мүсбәт нәхси кејфијјәтләринә көрә коллектив Арасында бөјүк нүфуза малик олмушдур.

Кәшфијјат бөлүјүнүн командири
Баш Л-НТ: Ибраһимов.Т.Л.

ХАСИЛЛЈӘТНАМӘ

865 N–ли һәрби һиссәнин 2-чи таборунун әсҝәри, баш сержант Абдуллајев Илјас Һүсејн оғлу 1991-чи илин декабр ајындан һәрби хидмәтдәдир. Һәрби хидмәтә [illegible] Зәнҝилан рајонунун Сејидләр кәндинин мүһафизәсинә јолланыб. О, командирләринин вә јолдашларынын етибарыны доғрултдуб. Бир нечә дәфә дүшмән һүҹумунун гаршысынын алынмасында иштирак едиб. Абдуллајев Илјас дөјүшләрдә јахшы иштирак етдијинә ҝөрә тағым командири тә"јин едилмишдир. Һәмчинин дөјүш заманы дүшмәнин I /бир/ БМП-ни I/бир/ [illegible] машыны мәһв етмишдир. О, [illegible] БМП машыны илә торпағымызын мүдафиәсиндә [illegible]

865 N-ли һ/һиссәнин
2-чи ТАГУР КОМАНДИРИ: /[illegible] Г./

1993–cü ildə Zəngilan rayonunda ayrıldıq. İsakla Füzuli rayonunda 706–cı rotada, görüşdük. 1993–cü ildə mən Müdafiə Nazirliyinə tərəfindən çağırıldım. Sonra isə Zəngilan rayonunun tank bölməsində rota komandir təyin olundum.



Abdulayev İlyas və onun döyüş yoldaşları

1994 – cü ilin mart ayının ikisində son döyüşüm oldu. Füzuli rayonunun Aşağı Veysəli kəndində, tankın içində vuruldum və kəllə - beyin kontuziyası aldım. Dilim tutuldu. 3 ay 15 gün ərzində hospitalda yatdım. Müalicə olundum. Hər şey öz qayddasına düşəndən sonra yenidən döyüşə qayıtdım. Təyinatımı 706 – cı hərbi hissəyə verdilər, burada kəşfiyat rəisi oldum. Orada da bir müddət döyüşdüm, bir neçə hücum əməliyatında iştirak etdim. Lakin hiss etdim ki, ağrılarım artır. Əsgərlərlə rəftarım kobutlaşır. Əsəblərim pozulmuşdu. Bəzən özümə nəzarət edə bilmirdim. 1998–ci ildə raportla Müdafiə Nazirliyinə müraciət etdim, səhhətimin, hərbi hissədə qalmağıma imkan vermədiyini bildirdim. Bir dəfə general Yaşar Aydəmirov ərzəmi cırdı. Mən ikinci ərizə yazdım və səhhədimlə bağlı olan bütün sənədlərimi topla - dım. Füzuli rayonun Əhmədbəyli kəndindəki hospitalında,

məni tibb yoxlamaya cəlb etdilər. Həkimlər təsdiq etdilər ki, həqiqətən də ciddi zərbə almışam və kontuziya keçirmişəm. Tibbi komissiya qərar çıxardı ki, mənim orduda olmağım mümkün deyil. Bundan sonra ordudan azad olundum. Mənə ikinci qrup Qarabağ müharibəsi əliliyiəm. Bunu Müdafiə Nazirliyi də təsdiq etdi. Bu xəstəlik hal - hazırda mənə rahat yaşamaq imkanı vermir.

Söhbəti Namiq Əzimov davam etdirdi.

Əzimov Namiq İsmayıl oğlu 1973–cü ildə Zəngilan rayonunun Xumarlı kəndində anadan olub.



Turabov Kamil və Əzimov Namiq

- 1991 – ci ilin may ayının 28-də hərbi xidməti Qubadlı rayonunda yerləşən “Sovet” ordusunda başlamışam. Azərbaycan Milli Ordusu yaradandan sonra hərbi xidmətimi öz ordumuzda davam etdirmişəm. Əsas silahım avtomat idi. İsak Fərəcov həmkəndlisiyəm. Taley elə gətirdi ki, biz səngərdə də bir yerdə olduq. Müharibə başlayan kimi İsak könüllü olaraq Milli orduya yazıldı. Bu xəbəri eşidən Xumarlı kəndi, elə həmin zamandan onunla fəxr edirdilər. İsak mərdliyi, qorxmazılığı ilə, döyüş yoldaşlarından seçilirdi. Həməşə ən gərgin döyüşlərdə olurdu. Ölüm haqqında qətiyyən düşünməzdi. Onu əməllərindən döyüş yoldaşları da ürəklənirdilər. Vətəni canından üstün tutardı. Isak demək olar ki, bü tün döyüş bölmərində olub. Şuşa, Laçın, Qubadlı, Zəngilan, Füzuli, Tərtər rayonlarında, baş vermiş döyüşlərdə iştirak edib.

1993 – cü ilin dekabr ayının 10 – nu, Zəngilan rayonu üçün ən ağır bir gün idi. Orada çox itki verdik. Girov düşənlər və ölənlər hədsiz dərəcədə çox idi.

Zəngilan rayonda “Gülyalı” adlan bir istiqamət var idi. Bu istiqamətdə ermənilərlə qarşı – qarşıya gəldik. Az gala ki, əlbəyaxa döyüşü ola. O zaman bizim Zakir Hüseynov komandirimiz idi. Çox çəngavər bir döyüşçü idi. Onu mina atan silahdan vurdular. Isakla mən komandirimiz ələ duşməsin deyə onu Gülyalıdan Seyidlər kəndinə qədər belimizdə aparmışıq. Gülyalı və Seyidlər arasındaki iki km məsafə vardı.

Mən İsakla Zəngilan rayonunun Seyidlər, Şayıflı, Aşağı Gəyəli, Nəcəflər, Qaragöl, Kolluqışlıq, Yeməzli kəndlərində baş vermiş döyüşlərdə olmuşam. 1993–cü ildə Füzuli rayonunun Horadiz qəsəbəsində, kəndlərində baş vermış döyüşlərdə də iştirak etmişik.



Sahib Nəsirov, Namiq Əzimov və döyüş yoldaşı

Elə o zaman qardaşım Natiq İsmayil oğlu Əzimov bizilə bərabər olub. Füzuli rayonunda baş vermiş döyüş zamanı, belə bir hadisədə olmuşdu:

150 nəfər döyüşçümüz hücuma keçmişdi. Isak bu döyüşdə həm bomba atan silahı ilə, həm də topla atəş açdı. O, bir neçə erməni tankları vurmuşdu. Isakla Natiq hər zaman bir yerdə döyüşürdülər.

Mən 1994–cü ilin yanvar ayının 5 – də Füzuli rayonunda baş vermiş döyüşlərdə yaralandım, və Bakı şəhərinə göndərildim, Semaşka adına xəstəxanada müalicə olundum.

Хасијјәтнамә

Верилир Әзимов Натиг Исмајыл оғлуна ондан өтрү ки, о һәгигәтән [illegible] олуб.

Мүстәгил Азәрбајҹан Республикасынын әрази бүтөвлүјү уғрунда Ермәни ишғалчыларына гаршы илк күнләрдән милли орду сыраларында дүшмәнә гаршы амансызҹа. ~~мүбаризә апармыш вә~~ өзүнү вәтәнпәрвәр, ҹәсарәтли, чевик, вә базирлиқли бир әсҝәр кими көстәрмишди. Натиг Әзимов рајон әразисиндә бир һансы нөгтәдә кәркин вәзијјәт јарандығыны көрәндә вә јахуд ешидәндә, һәмишә өзүнә нараһатчылыг һисси јаранырды. Чалышырды ки, өзүнү орада јетирсин.

Натигин вахтында верилән тапшырыглары јеринә јетирмәси нәинки, тағымын, һәтта бүтүн бөлүјүн һөрмәтини вә өз етибарыны газанмышды. Вәтәнпәрвәрлик руһунда тәрбијә алмыш бу ҝәнҹ һәрби сирләри дәриндән өјрәнмиш (пијада әлејһинә) силаһ вә сурсатларындан мәһарәтлә истифадә етмәјин өһдәсиндән ҝәлирди.

Тағымын тутдуғу дөјүш мөвгејинә дәфәләрлә һүҹум етмиш гуддар ермәни ишғалчыларына гаршы ҝөстәрилән әкс рәгабәтдә Натиг Әзимов тәрәфиндән ҝөстәрилән чевиклик, бачарыглыг [illegible] бүтүн дөјүш јолдашларына арха вә өрнәк олурду. Онлар ҝөрәндә дүшмәнин [illegible], пијадасыны, забитини, һәрби техникасыны мәһв етмәјә наил олурду.

1993-чү илин октјабр ајында Ермәни ишғалчылары тәрәфиндән Зәнҝилан рајону ишғал едилдикдән сонра Фүзули рајонунун бөлҝәсиндә јерләшән "Н" һәрби һиссәсинин тәркибиндә [illegible] 1994-чү ил јанварында

торпагларын дүшмән тапдағындан
тәмизләмәк үчүн бөјүк бир әмәлијјатда
олурду үзәринә ән бөјүк мәсулијјәт
дүшдү. Дүшмән архасына кечиб
дүшмәнә зәрбә вурмаг. Бәли јенә дә
олдуғу кими Натиг Әлиовда
[illegible] чәркәдәнди.
Бу әмәлијјат ст. Гарадиз Баби, Бөјүкбәһмәнли,
Шүкүрбәјли, Сејидәһмәдли вә Әбдүррәһманлы
вә бир нечә кәндләрин дүшмән тапдағындан
тәмизләнмәсиндә Натигин хүсуси зәһмәти
варды. Онун үзүнә дүшмән интигамы ики
гат әвәзин чәкмишдир.
Сонралар да дөјүшләрдә фәаллыг көстәрди.
Һәтта [illegible] торпағындакы бир
саатлыгда олсада [illegible] алмаг арзусу
үрәјиндә галды. 1994-ҹү илин 5 мартда
Натигин сон дөјүшү олду, бу дөјүшдә
Натиг Әлиов башындан бәрк јараланды,
госпитала көтүрүлдү. 13 март 1994-ҹү
илдә Натиг ағрылара дөзә билмәјиб
һәјатдан көчдү. Өзүндән сонракы
нәсилләрә јадикар бир ад гојду.
Гәлбләрә һәкк етди.
Аллаһ Натиг Әлиова рәһмәт етсин.
Јашасын Натиг кими Гәһрәманлара
[illegible] едир
"N" һәрби һиссәнин тағым командири
к/л. Шакир Әлијев [imza]

7/VIII 1996



Hal hazırda 2 – ci qrup Qarabağ müharibəsi əliliyəm.

Qardaşım Əzimov Natiq İsmayil oğlu 1975–ci ildə Zəngilan rayonunun Xumarlı kəndində anadan olub.

O, 1993 – cü ildə hərbi xidmətə çağırılıb. Saatlı rayonunda iki aylıq təlim və məşqdən sonra Zəngilan rayonunun Kölluqışlaq kəndində yerləşən rotaya göndərilib. Onun əsas silahı avtomat idi. Natiq Əzimov sonralar Zəngilan rayonunun Şayıflı, Aşağı Gəyəli, Şatarız kəndlərində baş vermiş döyüşlərə göndərildi. Zəngilan rayonu işğal olunduqda sonra o, hərbi xidmətini “Göranda” yerləşən hərbi hissədə davam etdirdi.

1994 – cü ilin yanvar ayında Natiq gilin hərbi hissəsi Füzuli rayonundakı döyüşlərə göndərildi. O, Seyidəhmədli, Horadiz, Əbdürrəhmanlı kəndlərinin azad edilməsi uğrunda qəhrəmançasına döyüşmüşdür. 1994 – cü ilin mart ayının 5 – də Füzuli rayonunun Əbdürrəhmanlı kəndi uğrundakı, döyüşdə o, başından yaralandı. Natiq Bakıya “Semaşko” adına xəstəxanaya göndərildi. O, oradaca gözlərini əbədi olaraq yumdu. Isak Natiqin şəhid olduğunu eşidəndə çox üzülmüşdü. Allah onları ikisinədə rəhmət eləsin...

Bu məqamda söhbəti Gülmalıyev Xəyal Hümbət oğlu davam etdirdi. Xəyal Gülmalıyev 1973 – cü ildə Zəngilan rayonunun Alıbəyli kəndində anadan olmuşdur.



- 1992 – ci ildə Milli Orduya yazılmışdım. İlk döyüşüm Laçın rayounda baş verib. Mən orduya göndəriləndə Bakı şəhərindən birbaşa Laçına getmişəm. Əsas silahım pullemyot və bomba atan silahı olub. Laçın ermənilər tərəfindən işğal olunandan sonra Zəngilan rayounun Seyidlər kəndinə göndərildim.



Хидмəти хасиjjəтнамə.

Верилир Ҝүлмалыјев Хəјал Һүммəт оғлуна

12 сентјабрда 1972-ҹи илдə Зəнҝилан рајону Ағбəјли кəндиндə анадан олмуш, орта тəһсиллидир. Субај, миллиjjəтҹə Азəрбајҹанлыдыр. Зəнҝилан рајону һəрби комиссарлығындан 1992-ҹи ил мајын 1-дəн милли ордуја кѳнүллү оларак хидмəтə ҝəлмишдир.

Zəngilan rayounda qardaşım Ehtiram Gülmalıyev də mənimlə bərabər vuruşurdu.

İsakla Zəngilan rayonunda döyüş yolarımız bir yerdə olub. O, məndən böyük olduğuna görə mənə, məsləhət verirdi, yol göstərərdi. 1993–cü ildə mən İsakla bərabər döyüşməyə başladım. Lakin ayrı – ayrı rotada idik.

Sahib Nəsirov bu söhbətə qarışaraq dedi:



Gülmalıyev Etiram

- O zaman Zəngilan rayonunda çox rota var idi. Bəzən 3 ay ərzində bir – birimizi görmürdük. Lakin hərbi hissələrimiz qonşuluqda yerləşirdi. Döyüşlər zamanı həmin rotalar bir – birinə yardım edirdilər.

Xəyal Gülmalıyev söhbəti davam etdirdi.

- 1993 – cü ildə Zəngilan işğal olunandan sonra demək olar ki, İsakla bir yerdə olmuşuq. Bizi Goranboya, sonra isə Füzuliyə göndərdilər. Əsas gərgin döyüşlərimiz Fü - zuli rayonun Horadiz qəsəbəsinə hücumuz gedişində olub.



Хидмәти хасијјәтнамә.
Верилир 20.06.1974-чү ил тарихдә Зәнҝилан р-н Алыбәјли кәндиндә анадан олмуш, орта тәһсилли, азәрбајҹанлы, аиләли 25.06.1992-ҹи ил тарихдән һәрби хидмәтә чағрылмыш баш чавуш Ҝүлмалыјев Еһтирам Һүмбәт оғлуна

Баш чавуш Ҝүлмалыјев Еһтирам Һүмбәт оғлу 25.10.1995-ҹи ил тарихдән 702 сајлы һ/һ-нин МАТ-ын 3-ҹү бөлүјүндә хидмәт едир. О, хидмәт мүддәтиндә өзүнү һәмишә интизамлы, бачарыглы вә дөјүшкән бир әсҝәр кими апармышдыр.

Баш чавуш Ҝүлмалыјев Еһтирам Һүмбәт оғлу интизамлы вә дөјүшкән әсҝәр олмагла бәрабәр дөјүшчү достларынын вә командирләринин дә дәрин һөрмәтини газанмышдыр. О, хидмәтләринә ҝөрә командանлыг тәрәфиндән дәфәләрлә тәшәккүрнамәләрә лајиг ҝөрүлмүшдүр.

Баш чавуш Ҝүлмалыјев Еһтирам Һүмбәт оғлу һәмишә командирләр тәрәфиндән алдығы тапшырыглары вахтында вә дәгиг јеринә јетирмишдир. О, 702 сајлы һ/һ-нин Фүзули рајонунда апардығы бир чох дөјүшләрдә ағыр вә әзаблы дөјүш јолларыны кечәрәк даһа мәтин вә даһа ҹәсур бир әсҝәрә чеврилмишдир.

Баш чавуш Ҝүлмалыјев Еһтирам Һүмбәт оғлу сијаси ҹәһәтдән сағламдыр. Һәрби сирри сахламағы баҹарыр.

Бөлүк командири [illegible] Кәримов В.Н.
3-ҹү МАТ командири [illegible] Мәммәдов Т.Ч.
702 № һ/һиссәнин [illegible] [illegible] Е.Т.

Ehtiram Gümalıyev 1974–cü ildə Zəngilan rayonunun Alıbəyli kəndində anadan olmuşdur.

1992 – ci ildə o, hərbi xidmətinə Zəngilan rayonunda başlamışdı. 1996 – ci ilədək onunla biryerdə döyüşmüşük. Onun əsas silahı avtomat idi.

Ehtiram 1994 – cü ildə kontuziya aldı. 1996 – cı ildə Prezidentin fərmanı ilə o hərbi xidmətdən azad olunub.

Qardaşımla evə qayıtdıq. Hər ikimiz Qarabağ müharibəsinin veteraniyıq.

Söhbəti davam etdi Həmidov Camal Talıb oğlu.



Camal Həmidov 1966 – cı ildə Zəngilan rayonun Yuxarı Yeməzli kəndində anadan olmuşdur.

- 1991 – ci ildə Zəngilan rayonunda Milli Orduya yazıldım. Əvvəlcə Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində, döyüşə qoşulmuşdum. Orada rota komandir olmuşam. Sonra isə Seyidlər kəndində vəziyyət çətin olduğuna görə oraya göndərildim. Könüllü sürətdə ərizə yazib komandirin müavini vəzifəsinə keçdim. 1993 - cü ilin dekabr ayının 9 – da ermənilər hücuma keçdilər. Həmin dövürdə Garagöz kəndində “dar” adlanan bir yer var idi. Düşmənlər bu yolu kəsməklə bütün bölgəni ələ keçirdməyə can atırdılar. Lakin bizə əlavə kömək gəldiyinə görə, ermənilərin bu çəhdinin qarşısı alındı və onlar geri çəkildilər. Həmin dəstədə İsak da var idi. Mən onu orada tanıdım. İsak bomba atan silahdan atırdı, İlyas isə top atəş açırdı. Lazım olan yerləri məfv edirdilər. Onlar bizim rotanın tərkibində ol-

masalar da, lazım olan da köməyə gəlirdilər. Isakın ürəkli olması, öz döyüşçüləri ardınca aparması hamımızı ruhlandırırdı. O qorxu bilməyən bir insan idi, gözünü qırpmadan erməni üzərinə şığıyırdı. Erməni gecəkən bütün dərələrə tökülürdülər.

Hər rotamızda 100 nəfər var idi. İsakla bir yerdə cəmi 15 – 20 gün döyüşdük. Sonra yeni "zenit artileriya" diviziya yarandı. Mən orada batalyon komandiri oldum. Batalyonumuz "Günqışlaq", "Kölluqışlaq" kəndlərində yerləşdi. 1993 – cü ildə dekabr aynın 9 – da Şayıflı kəndində yaralandım. Yaralandan sonra hərbi hospitalda müalicə olundum. 9 cərrahiyyə əməliyatıdan sonra ayğımdakı ağır yara "qanqrena" yaratdı. Ona görədə ayğım kəsildi. Hal - hazırda 2 – ci qrup Qarabağ müharibəsi əliliyəm.



Söhbəti davam etdi Nəsirov Sahib Məhərrəm oğlu. Sahib Nəsirov 1973 – ci ildə Zəngilan rayonunun Qaragöl kəndində anadan olmuşdur.

- 1991 – ci ilin yanvar ayında könüllü sürətdə Milli Orduya yazıldım. Zəngilan rayonun Seyidlər kəndində İsakla tanış oldum. Zəngilan rayonunun Aşagı Gəyəli, Şayıflı kəndlərində Nalbənd adlanan yerdə hücum postunda, Qazançı kən - dindəki bölmələrdə İsakla bərabər döyüşmüşük. Isak bu dövrün ən ağır döyüşlərində iştirak etmişdi. Həm Ağsakal, həm də yol göstərən bir şəxsiyyətdir. 1993- cü ildə biz Goran

poliqonuna gəldik, oradan isə Füzuli rayonuna göndərildik. Füzuli rayonun Seyidəhmədli kəndindəki hərbi əməliyyat zamanı mərmi partladı və qəlpənin bir parçası bədənimə daxil oldu. Bədən nahiyəsinən 7 yerimdən yaralandım.

İlyas Abdulayev söhbətə qarışaraq dedi:

- Sahibi ölmuş əsgər kimi meyidxanaya atmışdılar. Elə bilmişlərdi ki, o ölüb. Bir əsgərin valdeyni,təssədüfən görmüşdü ki, tərpənir. Bunu bizə xəbər verdilər ki, öluxanıda bir yaralı əsgər var.

Sahib Nəsirovdan xahiş etdim ki, həmin hadisə haqqında ətraflı danışsın.

Sahib Nəsirov söhbət davam etdi:


Sahib Nəsirov, İlham Həsənov və İlhamın babası.

- Bu hadisə Füzuli rayonunun Seyidəhmədli kəndində oldu. Biz üç tərəfdən hücuma keçmişdik. Hücuma keçdiyimiz məqamda bizə kömək lazım idi. Lakin kömək gəlmədi. Biz ermənilərnən üzbəüz qaldıq duşmənlərnən. Ermənilərlə bizim aramızda 50 – 60 metr məsafə var idi. Cəmi 20 – 25 əsgərimiz qalmışdı. Biz ermənilərin qarşısında “живой мишень“ çevirildik. 6 nəfər bir yerdə idik. 5 əsgərimizdə öldü və yalnız mən salamat qaldım. Ermə-

nilər mərmi atdılar, sonra isə bizi güllələdilər. Yanımda olan 5 əsgərimiz: Həsənov İlham, Guliyev Yasif, və başqaları o dəyqə şəhid oldular.

Mən isə bədənimin bir çox yerində qəlpə yaraları aldım, güllələr isə ayağımdan dəydi. Həmin güllə yağışının altından çıxmaq, mümkün deyildi. Buna baxmayaraq rəhmətlik Əfgan Həsənov və bir necə əsgər gəlib məni götürdülər. Əgər məni götürməsəydilər, coxdan ölmüşdüm. Xeyli qan itirmişdi. Yaralandıqdan beş gün sonra xəstəxanada gözlərimi açdım. Bundan sonra evə qayıtmalı oldum. Hal - hazırda 2 – ci qrup Qarabağ müharibəsi əliliyəm.

Söhbəti Camalov Rasim Məhərrəm oğlu davam etdirdi. Rasim Camalov 1973 – cü ildə Zəngilan rayonunun Aşağı Gəyəli kəndindən anadan olmuşdur.



- 1992 –ci ildə Zəngilan rayonun Şayıflı kəndində ilk hərbi xidmətə başlamışdim. Əsas silahım avtomat idi. Hərdən bir bomba atan silahdan da atəş açırdım.

İsakla 1992 – ci ildə Seyidlər kəndində tanış olmuşam. Həftədə bir dəfə postda durarkən bir – birimiz görürdük. Tridsatıy kəndində baş vermiş döyüşlərdə bir yerdə olmuşuq. 1993–cü ildə Zəngilan rayonu ermənilər tərəfindən işğal olunandan sonra “Go - ran” poligonuna gəldik.

Füzuli rayonunun Horadiz qəsəbəsinə hücuma keçdik. Və bu qəsəbəni erməni işğalından azad etdik. Oranı azad etdikdən sonra Füzulinin Şükürbəyli, Kərimbəyli, Aşağı Seyidəhmədli, Əbdürrəhmanı kəndlərində çox gərgin döyüşlər keçirdik.

1994 – cü ilin yanvar ayında Füzuli rayonunda böyük bir hücum əməliyyatı oldu. İsak burada öz qəhrəman olduğunu göstərdi. Erməni tankı ilə bizim aramızda 20 -30 metr məsafə qalmışdi. İsak tankı bomba atan silahı ilə vurdum. Tank yaxınığda olan kanalın içinə düşdü. Həmin tankın içində 3 – 4 erməni var idi. Onların hamısı yandı. Düzdür bu döyüşdə biz də itki verdik. Füzuli rayonunun mərkəzinə az qalmışdıq. Lakin biz dayanmağa məcbur olduq. Çünki itkilərimiz az deyildi.

1994 –cü ilin yanvar ayında İsakla bir yerdə olmuşuq. Yanvarın aynın 25-dən sonra məni başqa rotaya göndərdilər. 1994 – cü ilin fevral aynın ikisidə yaralandım və hərbi hospitala göndərildim. Orada müalicə olunandan, sonra mənə bir aylıq məzuniyyət verildi. Sonra yenidən Füzuli rayonuna qayıtdım. Bundan sonra İsakı artıq görmədim. Sonra eşitdim ki, o Tərtər rayonunda şəhid olub. Bu xəbər bizi çox üzdü. Allah ona rəhmət eləsin.......

1994 – cü ilin aprel ayında baş vermiş hücum zamanı yenidən yaralandım. Bu dəfə güllə sağ qolumdan girib, sol çiynimdən çıxmışdı. Hərbi hospitala göndərildim və ordudan ayrıldım. Qardaşlarımda mənimlə bir yerdə döyüşmüşdülər. Azər Camalov və Ramiz Camalov. Azərlə bir yerdə döyü şü - dük. Adətən döyüşlər zamanı iki qardaş bir yerdə hücuma göndərməzdilər, birimizi saxlayırdılar. Bəzən ara qarışarkən ikimizdə döyüşə gedirdik. Lakin mənim böyük qardaşım Ramiz Camalov polis idi. O əsasən Füzuli rayonunun Ho-

radiz qəsəbəsində olan postda dururdu. Ramiz Camalov müyyən müddətən sonra təqaüdə çıxdı. Azər Camalov isə 1996 – cı ildə müharibə meydanında ayrılmalı oldu. Hal - hazırda Qarabağ müharibəsinin veteranıdı. Mən isə Rasim Camalov 2 –ci qrup Qarabağ müharibəsi əliliyəm.

Səfərov Sərvan Şirzad oğlu 1971 – ci ildə Zəngilan rayonunda anadan olub.




Onun dediklərində:

- 1992 – ci ildə könüllü müharibəyə getdım. İsakla Zəngilanın rayonun Seyidlər kəndində tanış olmuşam. Bir il yarım bir yer - də döyüşmüşük. Zəngilan işğalından sonra Füzuli rayonuna gəldik. Zəngilanın işğalı olunanda komandirimiz Qorxmaz Əbilov idi, ro - ta komandir isə Sabir Hacıyev idi. Zəngilan işğa - lından sonra ehtiyat batalyonumuz dağılmışdı. Şəhid olanlar, itkin düşənlər, yaralananlar çox idi. Sağ qalan əsgərlər isə Araz cayının o əks sahilinə keçmişdilər. Füzuliyə gələndə İsakla bir rotaya düşdük. Bu rota “ 72 sayılı” hərbi hissə adlanırdı. Batalyonda təqribən 300 əsgər vardır. İsakla Füzuli rayonun Horadiz qəsəbəsinə əməliyyatında, bu rayonun kəndlərində döyüşlərdə bir yerdə olmuşuq.

İsakın yalnız müsbət cəhətini görmüşəm. O cəsarətli, sücayətli biri insan idi. Belə bir hadisədə olmuşdu:

Füzuli rayonunda İsak Fərəcov, Sahib Nəsirov və mən, 4 erməni tankının qarşısına qumbara atanla çıxmışık.



Səfərov Sərxan və Nəsirov Sahib

Füzuli rayonun ən qızğın bölgələrində İsakın böyük rolu olub. Füzuli rayonunda erməni tankının üzərinə atdığı bomba atan silahının atəşlərini görən düşmənlər qorxudan geri cəkilirdilər. Biz dəfələrlə belə halların şahidi olmuşuq.

Belə bir hadisədə olmuşdu:

Mən və Sahib Nəsirov avtomatla İsakı qorumuşuq. İsak isə erməni tanklara yaxınlaşıb vura bilməsədə, tank istiqamətini dəyişib. Əgər tanklar istiqamətini dəyişməsəydi 60 nəfər döyüşçümüzü əzib keçə bilərdilər. Horadiz əməliyyatında Zəngilan batalyonun cox mühüm rol olub və Horadiz işğaldan azad edilib. Horadiz əməliyyatı zamanı mən

ayağımdan yaralandım və orada İsakdan ayrıldım. Mən hal - hazırda 3 – cü qrup Qarabağ əliliyəm.

Səfərov Filman Hüsü oğlu

Səfərov Filman 1966 – cı ildə Zəngilan rayonun Ortayeməzli kəndində anadan olub.

- Mən 1991 – ci ildə Zəngilan rayonunda döyüşməyə başladım. İsakla 1993 – cü ildə Zəngilan rayonunun Şayıflı kəndində tanış olmuşam. Nəcəflər kəndindən “Aydaş” adlanan bir yüksəkliy var idi. Ermənilər həmin yüksəklikdə işğal etmişdilər. Bu yüksəklikdən səngərin içi görünürdü oradan. Məs həmən məqamda İsak bizim rotaya gəldi. Əvvəllər onu tanımırdım. Döyüşçülərdən onun kim olduğunu soruşdum . Mənə dedilər:

- “Cox yaxşı döyüşçüdür. Əvvəllərdə çox döyüşlərdə olub. Bizimlə qalmaq istəyir, qoy qalsın”.

Bu cavab eşidib İsakdan da daha dəqiq məlumat almaq istədim.

İsak dedi:

- “Mən Şayıflı kəndində yerləşən, 1 – ci rotadanam ”.

Ondan orda qalmıyıb, buraya gəlməsinin səbəbini soruşdum.

İsak cavab verdi:

- “Orada qalmaqdansa, gedib evdə yataram”.

İsak döyüşsüz qala bilmirdi. Səngərimiz ön mövqedə və çox çətin yerdə yerləşirdi. İsak haqqında onun igidliyindən, mərdliyindən, nə qədər söz yazsanızda azdır. Çünki o, həqiqətən də belə bir nadir oğlan idi. Qarabağın bütün bölgələrində də baş vermiş döyüşlərdə iştirak etmişdi. Böyük təcrübəsi olduğuna görə heç nədə qorxmurdu. Mən rotanı yenicə təşkil etmişdim. Əsgərlər döyüşlərdən bir az çəkinir - dilər. Çünki, təcrübələri yox idi. Lakin İsak cox hünərli və

qorxmaz idi. Ən çətin döyüş mövgelərinə öz istəyilə gedirdi. O daha çox bomba atan silahdan və topdan istifadə edirdi. Adatən hər əsgər bomba atan sılahdan atmaq istəmirdi. Ondan atəş acmaq da asand deyil.

Biz 1993 – cü ilin may ayının əvvəllərindən düz oktyabr ayın sonunadək bir yerdə döyüşmüşük. Sonra İsak Füzuli döyüşlərinə getdi. Bizim alıyanımızı isə ləğv etdilər. Alıyanın əsgərləri müxtəlif hərbi hisslərə göndərildilər. Bunula da bir – birimizdən ayrıldıq...........

Hal - hazırda Qarabağ müharibəsi veteranıyam

Həsənov Yaşar Allahverdi oğlu

Yaşar Həsənov 1968 – ci ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olmuşdur. Yaşar Həsənov dediklərindən:

- 1991 – ci ildə Zəngilan rayonunda könüllü olaraq Şayıflı batalyonuna yazıldım. Bu batalyonda 32 əsgər var idi. Həmin batalyona Polkovnik Şabanov başçılıq edirdi. “Pizər” adlı yer Ağdaşın aşağısında yerləşirdi. 1992 – ci ilin may ayında mənim sərəncamıma üç döyüşçü göndərildı. Bu döyüşcülərin arasında İsak da var idi. Dörd ay ərzində bizimlə birgə döyüşdü. Hücum zamanı İsakın ayağı minaya düşüb yaralanmışdı. O çox ürəkli və qorxmaz insan idi. İsak daha çox bomba atan silahından istifadə edirdi. İstədiyi zaman istədiyi yerə gedirdi, təşəbbüskar döyüşçü idi

Bir gün İsak erməni kəndlərinin “Sovxoz” adlanan bir ərazisinə tək yollanmışdı. Hər kəs bu addımı ata bilməzdi. Birdə gördük ki, İsak boğazınan bağlanmış bir dananı çəkərək gətirir. Sonra bu dananı kəsib həm batalyona, həm də Mincivan kəndinin sakinlərinə payladıq. Isak bu cür ürək sahibi olmuşdur. Rotamın döyüşçüləri əsasən Füzuli döyüş - lərində həlak olmuşlar. Döyüşcülərimizin təqribən 60 faizı

şəhid oldu. 1994-cü ildə atəşkəs elan olunadan, sonra cəbhə həyatından ayrıldım. Hal-hazırda Qarabağ müharibəsi veteranıyam.

Turabov Kamil Famil oğlu

Kamil Turabov 1973–cü ildə Zəngilan rayonunda anadan olub.



Onun xatirələrindən:

- 1991 – ci ildə Qazaxdan köçürmə ilə Milli Orduya yazıldım. 1992 – ci ildə Zəngilan rayonun Seyidlər kəndində dö - yüşlərə qoşuldum. Elə oradaca İsakla tanış oldum. Döyüşlər zamanı İsakın mərdliyini gördum. 1992–ci ilin dekabr ayında ayağimdan və sinəmdə yaralandım. Hərbi hospitalda müalicə olunduqda sonra yenidən döyüşə qayıtdım. Qubadlıya göndərildim və 1992 –ci ildə İsakgildən ayrıldım. 1994 – cü ildə Füzuli rayonuna 702 sayılı hərbi hissəyə göndərildim. Füzuli rayonunun Höradiz qəsəbəsində

Zəngilan döyüşçüləri daha çox itki verdilər. Orada 4 ay döyüşəndən sonra məni 706 saylı rotaya mina təmizdiyən kimi apardılar. 1996 – cı ilə qədər bu işlə məşqul oldum. Mən düşmən minaları zərərləşdirirdim, öz minalarımızı lazım olan yerə basdırırdım. Hal - hazırda 2 - ci qrup Qarabağ müharibəsi əliliyəm.

Salmanov Tariyel Ayaz oğlu.



Salmanov Tariyel – 1955–ci ildə Zəngilan rayonunn Şayıflı kəndində anadan olub.

Onun xatirələrinə diqqət etirək:

- 1992 – ci ildə Zəngilan batalyonu yarandı. Mən bu batalyonun təşkilatçısı təyin etmişdilər. O zaman Zəngilan rayonunun Şayıflı kəndində həkim kimi çalışırdım. Zəngilan rayonu Seyidlər, Ağ kənd, Dərəli, Nəcəflər kəndlərində postlarımız var idi. Onlarla əlaqə yaratmaq, vəziyyəti necə öyrənmək, lazım olan silahları göndərmək mənim vəzifəm

idi. Mən döyüşləri az - az görürdüm. Halbuki daim bu döyüşçülərin arasinda idim. Səngərlərdə olan əsgərlərimiz çox əziyyət çəkiblər. Mən bilirəm ki, həmin döyüşçülərin hər biri qəhrəman idi. Bir neçə dəfə səngərdə oldum. Döyüşən əsgərlərin həyatını gözümlə gördüm. Səngər elə bir yerdə idi ki, baş qaldırmaq mümkün deyildi. Düşmən hər zaman onları məfv edə bilərdi. Ermənilər yüksəkdə idilər, lakin döyüşçülərimiz qərartutmuşdular. Erməni snayperləri onları sağdan, soldan vura bilərdilər. Hava çox sərt keçirdi. Bu soyuqlara və şəraitsizliklərə baxmayaraq döyüşçülərimiz mərdliklə torpağlarımızı qoruyurdu. 1992 – ci ilin dekabr ayında atılmış merminin qəlpəsi qarınımı və başımı yaraladı. Müalicə olunandan sonra cəbhəyə qayıtdım. 1993 – cü ildə səhətimin ağırlaşması məni cəbhəni tərk etməyi vadar etdi. Lakin döyüşçülərimizə həkim kimi yardımımı göstərməkdə davam etdim. Hal-hazırda Qarabağ müharibəsi veteranıyam.

Həsənov Qafar Həsən oğlu.

Qafar Həsənov 1969 – cu ildə Zəngilan rayonunun Şayıflı kəndində anadan olub.

Qafar Həsənovun soylədiklərindən:

- 1992–ci ildə könüllü olaraq döyüş batalyonuna yazıldım. İstifadə etdiyim başlıca silah avtomat idi. 1993–cü ilin sonları 1994–cü ilin əvvəlləri İsak Fərəcovla tanış oldum.



Qafar Həsənov və İlham Həsənov

Batalyonumuzu "ehtiyatda" saxlayrdılar. Harada hücum olurdusa, biz öncə gedirdik. Zəngilan rayonunun işğalından sonra bizim batalyonu "Goran" poligonuna göndərdilər. Sonra isə Füzuli rayonunun Horadiz qəsəbəsinində və Seyidəhmədli, Qorqan, Şükürbəyli kəndlərinin, yaşayış məntəqələrinin, azad olunmasına iştirak etdik. Füzuli rayonunda baş vermiş döyüşlərdə İlham Həsənovda iştirak edib.

1994 – cü ilin yanvar ayının 5 – də Füzuli rayonunun Horadiz qəsəbəsinə hücum əməliyyatına başladıq. İran sərhədini keçib Horadiz qəsəbəsinə daxil olduq. Bu hücumda 60 - a yaxın döyüşçü iştirak etdi. Mənim tanıdığlarımdan Sahib Nəsirov, Namiq Əzimov, Baloğlan Mirzəyev, İlyas Abdulayev, İlham Həsənov və İsak Fərəcov idi. Elə bir vəziyyət yarandı ki, ermənilər həm arxamızda, həm də önümüzdəidilər. Bizə əmr olunmuşdu ki, ermənilərin qurduğu topxananı ələ keçirək. Həmən topxananı ələ keçirdik orada iki top, top daşıyan maşın, əldə etdik. 12 nəfər erməni döyüşçünü öldürdük.Hətta erməni elbəyaxa döyüşdük. Hətda Baloğlan Mirzəyev ermənini başına daşla vurub onu öldürdü. Bu topxana ələ keçirdik, düşmənin geriyə olan yolunu kəsdik. Ermənilər mümkün yardımdan mərhum oldular. Onlar qaca bilmədilər İlham Həsənov və İlyas Abdulayev topdan atəş açmağı baçarırdılar. Buna görə də topu ermənilərə doğru tuşlayıb atmağa başladıq. İsak bomba atan silahı ilə lazım olan mövqələri məfv etdi. Sonra isə bizə kömək gəldi və Horadizi erməni işğalından azad etdik. Heç bir gün keçmədi ki, yenə həyəcan siqnalı verildi. Gecə saat ikiyə doğru Şükürbəyli, Aşağı Seyidəhmədli kəndləri işğaldan azad olundu. Sonra Qorqan istiqamətində döyüşlərimizi davam etdirdik. Qorqanda çox ağır döyüşlərimiz oldu. Xeyli itki verdik, lakin irəli gedə bilmədik. Batalyonda olan Zəngilan

döyüşçülərin demək olar ki, çoxu şəhid oldu, yaralandı. 1994 – cü ilin yanvar ayının 20 – də qardaşım İlham Həsənov Qorqana hücum əməliyyəti zamanı şəhid oldu.



Qafar və İlham Həsənovlar və döyüş yoldaşı

Və mən qardaşımı götürdüm, onu Bakiya dəfn etməyə gətirdim. Azərbaycan Respublikası fərmanına əsasən ailədə bir nəfər şəhid olursa, digər oğul hərbi xidmətdən azad olunur. Mən xidmətdən azad olundum. Hal - hazırda Qarabağ müharibəsi veteranıyam. 3- 4 aydan sonra eşitdim ki, İsak Fərəcov Tərtərdə şəhid olub. Allah onların hər ikisinə rəhmət eləsin ...

Hümbətov Hafiz Nüşirəvan oğlu.

Hafiz Hümbətov 1973 – cü ildə Zəngilan rayonunun Bartaz kəndində anadan olmuşdur.

- 1992 – ci ildə Zəngilan rayonun Seyidlər kəndində döyüşməyə başladım. Elə oradaca İsakla tanış olmuşam.

Əsas silahım avtomat idi. Zəngilan işğal olunandan sonra Füzuli rayonuna göndərildim. Füzuli rayonunun Seyidəhmədli kəndində ayağımıdan və sinəmdən yaralandım. Hal - hazırda 2 – ci qrup Qarabağ müharibəsi əliliyəm.

Abdulayev İlyas mənə bildirdi ki:

- "Bizlə döyüşmüş bir çox əsgərlərimiz var ki, onlarda qəhrəman kimi döyüşüblər. Onlar hal - hazırda sadəcə həyatda yoxdurlar. Allah onlara rəhmət eləsin ...

Onlar ideal və qorxmaz insanlar olmuşdular."



Əliyev İbrahim Məmmədağa oğlu.

İbrahim Əliyev 1972 – ci ildə Sumqayıt şəhərində anadan olub.

1992 – ci ildə "rus sovet" qeneralın Şerbakın Gəncə rayonunda yerləşmiş batalyonundan Zəngilan rayonuna köçürulub. Döyüşlərə Zəngilan rayonun Seyidlər kəndində başlayıb. Əliyev İbrahimin ən çox istifadə etdiyi silah "22 millımetirlik zenit" qurğusu idi. 8 ay onunla bir yerdə döyüşdük. O, cəsur bir oğlan idi. Azərbaycan Respublikasının Prezidentinin 1992 –ci ilin mart ayında verdiyi fərmana əsasən İbrahim Əliyev, köhnə əsgərləri müharibədən azad olundular. Dünyasını iki il öncə dəyişib. Allah rəhmət eləsin...



Şəkərəliyev Elşad Müse - yib oğlu. 1974–cü ildə Zəngi- lan rayonunun Şayıflı kəndində anadan olub.

O ilk döyüşünə 1992 – ci ildə Zəngilan rayonunda başlayıb. Elşad Şəkərəliyev çox cəsur bir döyüşçü olub. İsak Fərəcovla hər zaman bir yerdə döyüşüb. 1994 – cü ildə Füzuli rayonunda hücum zamanı yaralanıb. Həkimlər onun bədənindəki gülləni çıxara bilməyiblər. Bu güllə elə bir nöqtəyə yaxın olub ki, onun çıxarılması mümkün olan deyildi. Həmin güllə onun bədənində hərəkətdə idi. 5/45 bu güllə həmin nöqtəyə çatanda sonra Elşad Şəkərəliyev 2007 – ci ilin noyabr ayında vəfat etdi. O, 2 – ci qrup Qarabağ müharibəsi əlili olmuşdur. Allah ona rəhmət eləsin. ...



Əliyev Elşad 1973 – cü ildə Zəngilan rayonunun Şayıflı kəndində anadan olub.

İlk döyüşünü 1992 – ci ildə Zəngilan rayonunda keçirib. İsak Fərəcovla ağır döyüşlər - də bir yerdə olub. Elşad Əliyev cox igid və qorxmaz əsgər idi. 1994 – cü ildə Füzuli rayonun -

da yaralanıb. O ayağından yaralanmışdı. Hərbi hospitalda Elşad Əliyevin ayağının biri kəsilib. Hal - hazırda 2 – ci qrup Qarabağ müharibəsi əlilidi.



Şakir Əliyev – 1971 – ci ildə Zəngilan rayonunda anadan olub. Onun söylədiklərindən.

- 1992 – ci ildə Zəngilan rayonunun könüllü batalyonuna yazılmışam. Şayıflı, Seyidlər, Aşağı Gəyəli kəndlərində İsakla bir yerdə həm postlarda, həm də ağır döyüşlərdə bir yerdə olmuşam. Ağır zül - mlü günlərimiz olub. Garın və suyun içində olmuşuq. İsak çox cəsur və qorxmaz əsgər idi. O, bomba atan silahdan avtomat kimi istifadə idirdi. İsak lazım olan mövqələri məfv edirdi. Zəngilan işğal oluduğda sonra Zəngilan batalyonu “Goran” poligonında yerləşdi. 1993 – cü ilin dekabr aynında isə Füzuli rayonuna göndərildik. Füzulidə elə bir vəziyyət yaranmışdı ki, orda əsgərlərimizin çoxu döyüş yerindən qaçırdıl. Lakin İsak da daxil olmaqla Zəngilan döyüşçüləri birlikdə qəhrəmançasına döyüşüblər. Zəngilan rayonunun döyüşçüləri sonadək lazımı mövgəyidə döyüşüblər. 1993 – cü ilin dekabrın ayında Füzuli rayonunda mərmi düşərək bütün bədənimi yaraladı. Hal - hazırda Qarabağ müharibəsi veteranıyam.

Müzafərov Ələdin Bəhram oğlu.

Müzafərov Ələdin 1966 –cı ildə Zəngilan rayonunun Şərikən kəndində anadan olmuşdu. Onun dediklərində:

- 1990 – cı ildə könüllü olaraq orduya yazıldım. O zaman silahımız az idi və orduda ov tüfənqi ilə döyüşdüm. Zəngilanın Şərıkən kəndində postda dururdum. Zəngilan işğal olunduqdan sonra Ağdəriyə getdim .703 saylı hərbi hissədə oldum. Zəngilanda Isakla 1991 – 1992 – ci illərdə bir yerdə döyüşmüşük. 1994 – cü ildə müharibə meydanından ayrılmalı oldum. Hal - hazırda Qarabağ müharibəsi veteranıyam.

Abdullayev İsmayil Yavər oğlu

Abdulayev İsmayil 1972 –ci ildə Zəngilan rayonun Muğallı kəndində anadan olmuşdur. Qarabağ veteranın söylədiklərindən:

- 1992 – ci ilin yanvar ayında ordu sıralarına yazıldım. İlyas Abdullayevlə sinif yoldaşı olmuşuq . Əsas silahım pulemyot idi. 1994 – cü ildə Füzuli rayonunda yaralandım. Güllə boğazımdan girib, belimdən çıxmışdı. Hal - hazırda 2 – ci qrup Qarabağ müharibəsi əliliyəm.

Pənahəliyev İsmayıl Fehruz oğlu

Pənahəliyev İsmayıl 1973 – cü ildə Zəngilan rayonunun, Garagöl kəndində anadan olmuşdu.



İsmayıl Pənahəliyevin xatirələrindən:

- 1992 – ci ildə könüllü ola - raq ordu sıralarına yazıldım. Hərbi hissədə sürüçü kimi fəaliyyət göstərirdim. Ən qaynar döyüş nöqtələrinə silah sursat daşıyırdım. 1996 – cı ildə müharbə medanında ayrıldım. Hal hazırda Qarabağ müharbəsi veteranıyam.

Yanvar ayının 22 idi mən İlyas Abdulayeva zəng etmişdim ki, lazım olan məlumatları ondan alım. Abdulayev mənə bildirdi ki, sabah yəni 2015 – ci il yanvar ayının 23 – də, Şəhidlər Xiyabanında İlham Həsənova həsr olunmuş bir çəkiliş olacaq. İlyas Abdulayeva mənə təklif etdi:

- "Sən də orda olmağın, yaxşı olar. Orada daha çox məlumat toplaya bilərsən".

Yanvarın ayının 23 – də Şəhidlər Xiyabanına yollandıq. Mənimlə Şəhidlər Xiyabanına gedənlər sırasında:



Xəyal Gülmalıyev, İlyas Abdulayev, Namiq Əzimov, Sahib Nəsirov, Sərvan Səfərov, Qafar Həsənov və Sabir Hacıyev

Və İlham Həsənovın ailə üzvləri var idilər.

İllərin bir – birini əvvəz etməsinə baxmayaraq Şəhidlər Xiyabanında kövrəlməmək mümkün deyil. Artıq bu hadisələr vətən övladlarının qəhrəmanlıq nümünələri Azərbaycan Xalqının səhiflərində öz əksini tapıb. Şəhidlərimizin muasir



və gələcək Azərbaycan övladlarının ürəyində yeri vardır. Tarixə çevrilmiş həmin gərgin, qanlı döyüşlərin hər biri araşdırılmalıdır. Ürək yandıran bir mənzərədi. Qanlı tarixi-mizin bu yaralar yalnız, vətən torpağımız azad olunandan sonra sağalacaq.

Öncə İlhamı Həsənov qəbrini ziyarət etdik.





Həsənov İlham Həsən oğlu

İlham Həsənov 1973 – cü ildə Zəngilan rayonunun Şayıflı qəsəbəsində anadan olub.

1992 –ci ildə könüllü olaraq Zəngilan batalyonuna yazılıb. Ermənilərə qarşı ilk döyüşünü Zəngilan rayonunun Seyidlər kəndində keçirilib. İlham topçu idi. O, İsakla bir yerdə, bir çox döyüşlərdə olub. İlham Həsənov mərd, qorxmaz döyüşçü idi. Çox hərbi uğurları olub. İlham xidmət etdiyi dövürdə hər kəsin hörmətini qazanmışdı. O, Seyidlər kəndində baş verən ağır döyüşlərdə iştirak edib. 1992 – ci ildə düşmənlər Şayıflı kəndinə hücum edərkən İlham və İlyas onlara top atəşi ilə güçlü zərbələr vurmuşdular. İlham və İlyas düşmənin bir necə obyektini dağıtmış, bir “ ZTR” tipli döyüş texnikasının məfv etmışdilər. Döyüşlərin birində İlham ağır yaralanmışdı. Sonra o müalicə olunub hərbi xidməti davam etdirmişdi. Zəngilanın işğal olunandan sonra o “Goran” poliqonunda keçirilmiş xüsusi təlimdə “əla əsgər” adı almışdı. İlham Füzuli rayonuna hücum zamanı 1994 – cü ilin yanvar ayında şəhid olub.

İlhamın qəbrinin üstündü Azərbaycan Respublikasının dövlət bayrağı dalğalanır. Sabir Hacıyev bu bayrağın tarixini mənə danışdı:

- Vaxt ilə bu bayraq Qafan şəhərinin Qazançı kəndində dalğalanırdı. İllər boyunca həmin bayraq məndə olub.

Fikirləşdim ki, bu bayrağı aparıb döyüş yoldaşımın İlham Həsənovun qəbrinin üstünə asaçağam. Döyüş yoldaşlarımın iştirakı ilə bu bayrağı İlhamın qəbrinin üstünə asdıq. Ümid varam ki, bizim bayraqlar Qarabağ torpaqlarında dalğalanacaq! Amin. Həmin günü səbirsizliklə gözləyirik.

Şəhidlər Xiyabanında Namiq Əzimovun qardaşı Natiq Əzimov da dəfn olunmuşdur. Natiq Əzimovun qəbrini ziyarətinə getdik.



Sabir müəllim önə keçərək Namiq Əzimova başsağlığı verdi və dedi:

- Biz şəhid olmuş döyüş yoldaşlarımızı heç bir zaman unutmuruq. Mən Natiqdən və Namiqdən o qədər raziyam ki! Allah bu oğlanların atasına rəhmət etsin ki, belə bir oğular böyüdüb. Bu qardaşlar hər zaman müharibənin ən çətin döyüşlərində iştirak ediblər. Namiq, Allah sənə səbr versin! Bütün şəhidlərimizin qəbri nurnan dolsun! Yenə təkrar edirəm, Allah sənə səbir versin. Sən həm yaxşı dost, həm də qardaşsan.

Namiq dedi:

- Burada olan şəhidlərimiz hər biri, bizim qardaşımızdır.

Yasif Quliyevin məzarını ziyarətinə etdiq.

Yasif Quliyev 1969 – cu ildə Zəngilan rayonunun Şayıflı kəndində anadan olub.




1992 – ci ildə könüllü olaraq batalyona yazılıb. Əsas silahı avtomat olub. Zəngilan və Füzuli rayonlarında baş vermiş döyüşlərdə İsakla, İlhamlla, Əfqanla, Namiqlə birlikdə iştirak edib, onlarla yaxın dost, qardaş , döyüşçü olub. 1994 – cü ildə Füzuli rayonunun Seyidəhmədli kəndində şəhid olub...

Həsənov Əfqan Xudayar oğlunun məzarını ziyarət etdik.

Əfqan Həsənov 1969 – cu ildə Zəngilan rayonunun Nəcəflər kəndində anadan olub.




1992 – ci ildə könüllü olaraq batalyona yazılıb. Onun əsas silahı top idi. O, 1994 – cü ildə Füzuli rayonun Seyidəhmədli kəndində şəhid olub.....

Bu görüş zamanı müşahidə etdim ki, bu insanlar bir - biri ilə ən ən əziz, ən yaxın insanlar kimi görüşülər. İlyas Abdullayev, Namiq Əzimov Qarabağ müharibəsı zamanı çəkdirdikləri şəkilləri özləri ilə gətirmişdilər.



Onlar bu şəkilərə baxarkən, sanki, bir anlığa keçmişə qaydırdılar. Bu xatirələr nə qədər acı olsa da, onlar bu anları heç bir zaman unutmayaçaqlar. Onlarla bu duyğuları yaşamaq, mənidə kövrəltdi. Bu görüş həm də xoş təssürat yaratdı. Sanki, bu insanları illər boyu tanımışam. Kitabı yazmaq həvəsi ilə müxtəlif zamanlarda, fərqli məkanlarda vaxtı ilə Zəngilan rayonunda yaşamış insanlarla ünsiyyətdə ol - dum. Zəngillanlar mehriban, səmimi, qonağpərvər və vətənə qayıtmaq həvəsi ilə yaşayan insanlardır. Vaxt ilə vətənin müdafiəsi, azad olunması uğrunda döyüşmüş Zəngillanların arzularının, lap yaxın gələçəkdə gerçəkləşəçəyinə əminəm!

Bir azdan İlham Həsənovun anası gilə yollandıq.



Şəhid anası olmaq çox çətindir. Bu anaları görəndə, insanın qəlbi paramparça olur. İlham Həsənovun bir namərdin gülləsinə tuş gəldi. Anası dişindən, dırnağından,boğazınan kəsib böyütdüyü oğlunu, ana torpağa tapşırıb. Bu anaların gündüzü gecəyə çevrildi.



Tənzilə ana, Səkinə nənə və bir çox analar elə oğullar böyükdülər ki, onlar Ulu, Ata, Vətən uğrunda canlarından keçdilər. Elə oğullar böyüktdülər ki, onlar bu torpağın öz canlarından daha uca, üstün olduğunu sübüt etdilər. Bu oğllanlar, əsgərlər düşmənin yolunu kəsdilər. Ulu kitabı "Dədə Qorqud" dastanın Bakı sələflərinin davamçıları olduqlarını nümayiş etdirdilər. Ana və bacılarının namusunu qorudular. İlham Həsənovun atası Həsən dayı illərin yataq həstəsidir. Onun anası isə gecələrini, gündüzlərini ağır sizıltılarla keçirir. İlhamın atasına və anasına yalnız açılı, şirinli xatirələr qalıb. Vətənə, Zəngilana qayıtmaq arzusu həsrəti qalıb... 22 ildir ki, Tənzilə ananın yarası sağalmır ana hər gecə ağlayır, başını yastığa qoyur. Hər gün oğlu Ilhamı anır...



Ilham Həsənovun, Tənzilə anası ilə

Tənzilə ana sən tək deyilsən! İlham sənin yeganə övladın, oğlun deyil. O həm də, bu vətənin övladıdır, oğludur. Şəhid olmuş Azərbaycan övladlarının baş daşlarına baxdıqca, düşünürəm: ana südün, övladına halal olsun! Allah sizə səbr versin!....



İlham Həsənov və İsak Fərəcov dost, qardaş, cəsur bir igid olmuşlar. Vətən üçün əllərindən əsirgəmiyiblər. Aylar, illər keçsə də onların igidliyi xatirələri yadaşlarda qalacaq nəsildən - nəsilə ötürüləçək. Beləliklə, Xalq igid, qəhrəman övladlarını qəlbində əbədi yaşadacaq......

Müharibədə İsakla son döyüşdə iştirak etmişdi döyüş - çülərin üçünü tapdım və onlar İsakın necə şəhid olduğundan bəhs etdilər.

Orucov Yusufəli Məlik oğlu.

Orucov Yusufəli 1973 – cü Idə Şirvan keçmiş (Əli – Bayramlı) şəhərində anadan olub. Onun söylədiklərindən:

- 1994 – cü ildə müharibəyə getmişəm. İsak Fərəcovla elə həmin ildə Tərtər rayonunda tanış olmuşam. 3 gün

ərzində Gəncədə yerləşən “Nizami” poligonunda təlim keçirdiq. 3 gündən sonra bizi Tərtər rayonunun Cəmilli kəndinə göndərdilər. Cəmilli kəndindəki batalyonun, məktəbdə yerləşdiyinə görə oraya yollandıq. Silahlandıq və sonra döyüş bölgələrinə yollandıq. Tərtər rayonunun Cəmilli və Borsunlu kəndində dörd gün ərzində İsakla bir yerdə döyüşdük. İsak “ P.K “ ağır silahdan atəş açırdı mən isə avtomatdan istifadə edirdim. Batalyonmuzun avangard idi, yəni elə ön gedir düşməni məfv edir, arxadan isə başqa batalyon hücuma keçirdi. Geçəykən bizi Talış kəndinə apardılar və üç gün ərzində döyüşdük. Düşman Cəmilli kəndini işğal etmək istədi. Lakin fasiləsiz buna imkan vermədik, bir - iki km irəlilədik.

Axşam saat 4- 5 radələri idi. Qızğın döyüş gedirdi. Az qalmışdı ki, ermənilərlə əlbəyaxa olaq. İsak məndən iki metr aralıda idi. Birdə gördüm ki, erməni snayperi İsakı boynundan vurdu . Yaralıları daşıyanlar İsakı da götürdülər. Mən isə döyüşü davam etdim....

Məlikov Varağa Mətamən oğlu

Varağa Məlikov 1961–ci ildə Sabırabad rayonunda anadan olub. Onun dediklərindən:

- 1993 – cü Ildə müharibəyə getmişəm. 1994 – cü ilin aprel ayında Gəncədə yerləşən “Nizami” poligonunda təlim keçdik. Üç gündən sonra bizi Tərtər rayonun Cəmilli kəndinə göndərdilər. Səhər idi. Biz lap erkən oyandıq. Silahlanıb hücuma hazıraşdıq. Rayonun Talış kəndi qızğın döyüşlər gedirdi. Günortadan xeyli keçmişdi təxminən 4-5 saat olardı. Isakla mənim aramda 4-5 metr var idi. İsak bomba atan silahını götürdü, mən də ona mərmi verdim. İsak bu silahdan yaxşı atəş açırdı. O, atəş açandan sonra düşmən snayperi onu arxadan boyunundan vurdu. Sonra mən İsakı sürüdə -

sürüdə dikə çıxartdımı. Onu Rasim Canəliyeva təhvil verdim. Sonra mən döyüş meydanına qayıtdım. İsakla cəmi bir gün, bir yerdə döyüşdük. O, həmin gün şəhid oldu ...

Canəliyev Rasim Yoldaşəli oğlu.

Rasim Canəliyev 1965 – ci ildə Salyan rayonunun Xələc kəndindən anadan olub. Rasim Canəliyevin xatirələrində:

- 1992 – ci ilin may ayın 15 - də könüllü sürətdə orduya yazıldim. Bizim könüllü batalyon 845 saylı hərbi hissə Eldar Bağırovun adını daşıyırdı. Həmin hərbi hissə Xocalıdan 3 km aralıda yerləşirdi. Isakla mən 1994 – cü ilin aprel ayında “Nizami” poliqonunda tanış olmuşam. 2 gün onunla bir yerdə qaldıqdan sonra bizi geçəykən Göranboy istiqamətinə göndərdilər. Sonra isə Tərtərdə vəziyyət gərginləşdiyinə görə oraya getməli olduq. Tərtər rayonunun Talış kəndinin üzümçülük sahəsində qala var idi. Çox ağır döyüşlər gedirdi. Həmin ərazi düzənlikdən və təpələrdən ibarət idi. Heç bir səngər yox idi. Ermənlərin hansı tərəfdən hücuma etdiklərini bilmək olmurdu. Düşmənin fikri Göran dairəsini ələ kecirmək idi. Göran dairəsinin bir yolu Naftalana yönəlir, o biri yolu isə Gəncə tərəfə uzanır . Həmin gün ərzində batalyonumuz 300 – 400 metr irəlilədi və biz çox itki verdik.

İsakla cəmi dörd gün bir yerdə döyüşdük. İsak Fərəcov “P.K” ağır silahı verilmişdi. Həmin gün belə bir hadisə də olmuşdu:

Bizi 10-12 nəfər erməni gəflətən arxadan mühasirəyə aldı. Bu zaman İsak özünü itirmədi və onları “P.K” ağır sılahı ilə qüllələyib məhv etdi. Onun çəsarətində, döyüşlər zamanı, uğurlarından cox danışmaq olar.

İsakı ermənin snayperi tərəfindən vurulması gözumun önundə olub. Hücum zamanı 50 metr irəlidə, yaralı ermənin əsgəri qalmışdı. Böyük bir kolun arxasında idi. İsak çalışdı

ki, onu pullemyotla vura, lakin ermənini vura bilmədi. Arxadan bomba atan silahını götürdü, mərmini bağladı. İsak o kola tərəf elə atəş açdı ki, kol yerli - dibli yoxa çıxdı. Bundan sonra o dönüb, bomba atan silahını yerə qoymaq istəyəndə, snayperlə arxadan boyununda vuruldu. İsak belə şəhid oldu. Həmin hadisədən üç gün sonra biz bu yeri hücum edərək ələ keçirdik. İsakın vurduğu erməni həmin yerdə qalmışdı...



İsak Fərəcovun, şəhid olduğu gündən 21 il keçir. Lakin onun anası Səkinə nənə elə hey ağlayır. Səkinə nənə ağlama. “Şəhidlər ölməz” deyənlər çoxdur, lakin illər keçsə də bu sözlər də ananın ürəyinə mərhəm olmur. İsak Fərəcov bir ata idi. O balalarının üzünü doyunca görə bilmədi.



Fərəcov İsakın oğlu Anar, qızı Anarə və anası
Səkinə nənə

Hətda bir övladının dünyaya gəldiyinidə görmədi. Oğlu Turalın yeriməyə başlamısını, dil açımasını, “ata” demesini eşidə bilmədi. İsak öz ailəsini, körpələrini qoyub, vətəni mudafiə etmək üçün döyüşə yollandı. O həmin yolun sonunda, şəhid ola biləcəyini də düşünürdü. Lakin 21 ildir ki, günləri, ayları saniyələri onsuz yaşayırlar,onun yaxınları. İsak Fərəcov kimsiyə nümünə olmaq üçün, kimisəyə vətən sevgisi oyatmaq üçün, mərdlik yaşatmak üçün cəbhəyə yonlanmışdı.

İsak Fərəcov çiynində bomba atan silahı ilə döyüşərək düşməni cəzalandırmaq üçün əlindən gələni əsirgərmədi.



Isak Fərəcov

Bu şəhidləri unutmamaq borcumuzdur! Yalnız bizim deyil, bütün Azərbaycan Xalqının borçudur. Səbrli və cəsarəti düşmənə, kini və nifrəti, bu qəhrəmanlarımızdan öyrənməliyik. Canlarını vətən yolunda fəda edənlər hamımıza bir örnəkdir. İsak çoxlarının edə bilmədiyini etdi. Çoxlarının çəkə bilmədiklərinin çəkdi. Əbədiyyət zirvəsinə yüksəldi, şəhidlər zirvəsinə uçaldı. Vətənə olan sevgisi onun əbədiləşdirdi. Azərbaycanın qeyrətli vətəndaşı, qəhramanı, nümün - əsi kimi dirildi. Mən vətənimizə İsak kimi oğullar arzu edirəm.

Hər şəhidin öz ruhu var və millət yaşadıqça o ruh da yaşayacaq. İsak Fərəcov əsil Azərbaycan övladıdır. Onun kimi minlərlə şəhidimizin ruhu, bizi vətənin ərazi bütövüyü müstəqiliyi uğrunda mübarizəni əzmlə davam etdirməyə cağrır. Azərbaycan şəhidləri məhz bu amallar naminə



döyüşlmüş onların adları əbədi olaraq tariximizi yaddaşına köçmüşdür. Döyüş dostları və qohumları İsak Fərəcovun cənazəsini Şirvan şəhərində torpağa tapşırmışral. İllər keçsə də onun adı xatirələr də qalacaq. Mən İsakın ailəsi ilə görüşdüm.



Ana öz şəhid olmuş övladı ilə fəxr edir, qürür hiss duyur. Qədirbilən Xalqımız heç kimi unutmur, heç nə yaddan çıxmır. Şəhidlər bizim həm miskilimiz, kədərimiz, ürək ağrımız. Həm də vüqarımız, həm fəxrimizdir. Allah bütün Şəhidlərə rəhmət etsin! İsak Fərəcovun anası Səkinə nənə Prezidentimiz İlham Əliyev cənablarına müraciət edərək oğluna "Milli Qəhraman" adı verilməsini xahiş etmişdir. Bu kitabı oxuyan hər bir kəs, İsakın bu ada layiq olduğunu anlayacaq. Bu kitabda bir çox mətləblərə toxuna bilmədim. Döyüş yoldaşlarının dediklərinin təqribən bir faizidir. Yaziya çevirdiklərim İsak Fərəcovun xüsusi ilə qeyd etdim ki, minlərlə belə gözüyaşlı analarımız baçılarımız, övladlarımız, dul qadınlarımız var. Onların gözyaşlarına öz təsərini nə zaman göstərəçək? Vahid Fərəcov qardaşının dərdində dözə bilmədi. O, da gözlərini əbədi olaraq yumdu. Firudin Fərəcov isə hal – hazırda 2 – ci qrup Qarabağ müharibəsi əlilidir. Səkinə nənə bu övladlarından hansının dərdini cəksin? 10 ildir ki, o artıq yataq xəstəsidir. Səkinə nənə demək istədiyiklərini əlləri izah edir. Ürəyindən keçən sözləri də deyə bilmir. Anaya yaxınlaşdım, onun əllərindən tutdum, o ağlıdı.



Düşündüyünü mənə deyə bilmədi. Səkinə nənə bilirdi ki, mən İsak Fərəcov haqqında kitab yazacağam. O, çox ağladı bu mənzərini görmək çox ağır idi. Məndə özümü saxlaya bilmədim, lakin ona verdiyim təsəlim Səkinə nənəni müyyən qədər ovutdu. Səkinə nənə balalarını böyütmək üçün xeyli əzab - əziyyət çəkib. O yetim olmuş, balalarınıda təkçə böyütmüşdü. Səkinə nənə, başınızı həmişə uca tutun. Sizin Xalq garşısınıda öyünə bildiyiniz İsak kimi qəhrəman bir oğlunuz var. Fəxr edin ki, vətənə belə bir oğul verdiniz. Allah sizə səbr versin. Biz gənclər üçün siz bir örnəksiniz. Mən bütün həmyaşıdlarımızın adından sizin qarşınızda baş əyirəm, əllərinizdən öpürəm. Bizidə öz övladlarınız hesab edin.... İsak Fərəcovun simasında sizə onunla birgə ermənilərə qarşı döyüşmüş qəhrəman əsgərlərimiz tanıdmaq istədim. Hal – hazırda yaşayan bu əsgərlərdən hər biri şəhid ola bilərdi. Bu əsgərlərin, şəhidlərimizin hər biri yüksək dəyərləndirmək lazımdır. Onları tanimaq və tanıtmaq hər birimizin borçudur. İsakla birgə döyüşmüş əsgərlərimizin az bir qismini tapdım. Təəssüf ki, Şuşa, Laçın, Qubadlı bölməsində onunla birgə döyüşmüş yoldaşlarını tapa bilmədim.

İsakın bacısı Çimnaz Fərəcova deyir:

- 1993 – cü ilin avqust ayının 26 – da, artiq kənddə yaşamaq mümkün deyildi. Zəngilan rayonunun kənd əhalisi evlərini tərk edirdi. Mənim bacım Pərvanə Fərəcova Göy - çayda yaşayırdı. Buna görədə oraya getməli olduq. Beş – altı ay orada qalandan sonra, Bakıda olan yataqxanalardan birində yerləşdik. O, vaxtlar ən çətin günlərimizi yaşayırdıq. Balaca bir otaqda 10 nəfər yerləşmişdik. Heçnəyimiz yox idi. Çox açınacaqlı vəziyyətdə idik. 1994 – cü ilin yaz ayları idi. Isak komandirindən içazə alıb, baş çəkməyə gəlmişdi. Isakın gəlişinə sevindik, onun ətrafına yığışdıq. Anamıza

sarılıb İsakla söhbət edirdik. Isak müharibədə olanlardan, bitənlərdən danışırdı:

- “Son dəfə Zəngilandan çıxanda, öz evimizədə getdim. Kəndimizin boşluğu, məni vahiməyə saldı. Toyuq - çüçələrin, mal - qaranın qaldığı yerlərin qapısını bağlayıb çıxmızınız. Yazıq heyvanlar açlıqdan – susuzluqdan ölürdülər. Toyuq - çüçələrin, mal - qaranın qaldığı yerlərin qapısını açdım və bir tay buğdanı həyətə səbtim . Evə girdim. Gördum ki, mətbəxin qapısı bağlıdı. Təpiklə qapını sındırıb actım.........

Söhbətin bu yerində anası İsaka dedi:

- Ay bala, qapını niyə sındırırdın?

İsak cavab verdi:

- Daha mətbəxin qapısını neyniyirsən? Üstümdə hərbi çanta var idi. Həyətə girdim, çantanı meyvə ilə doldurdum və oranı tərk etdim...

Çimnaz söhbətinə davam edərək dedi:

- O zaman Isak yanımızda bir həftə qaldı. Bu gedişdən bir ay keçmədi ki, İsak şəhid olması xəbərini aldıq...



Fərəcov İsakın ailə üzvləri

Pərvanə Fərəcova söylədiklərindən:

- Müharibə başlayandan etibarən, hərbi paltar İsakın demək olar ki, əynindən çıxmayıb. O hərbi sənətinə çox həvəsli idi. 1994 – cü ildə mən Göyçayda yaşayırdım. Orada müəllimə işləyirdim. Dərs zamanı, xəbər gəldi ki, tez evə gəlməliyiəm. Evə gəldim, mənə İsak şəhid olduğunu hələ deməmişdilər. Qaynatam mənə dedi:

- “Pərvanə, mən Bakıya gedirəm. Gəl birliktə gedək. Anangilə baş çəkərsən ...”

Bu məqamda hiss etdim ki, nə isə baş verib . Həmin gecə İsakı yuxuda görmüşdüm. Yuxumda gördüm ki, Zəngilan işğal olunub. Atamın şəkili ermənilərdədir, Isak isə avtomatı mənə verir ki, “bunu ermənlərin üstünə tuşla, mən də şəkili ermənidən alım”.Şəkil çərcivədə idi .Isak şəkili alanda, onlar şəkilin üzünü sındırdılar. Anladım ki, bu gün nə isə eşidəcəm. Anamgilə baş çəkdim, lakin sevinmədim. Sanki ürəyimə, nə isə danmışdı. Gəlib gördüm ki, anam və bacılarım saçlarını yolurlar. Həmin günü necə ağır olduğunu təsəvvürünüzə gətrə bilməsiz...

Qardaşı ölmüş bacinin halı necə olar?

Çox cətin idi...

Pərvanə ağladı, gözünün yaşını sildi və dedi:

- Həməşə, İsak dəfn olunan gündə, onun yanında ola bilmədiyimizə təəssüf edirik. Onun cəsətini Şirvan şəhərinə, gətirib, Şəhidlər Xiyabanında dəfn etmişdilər. O zaman ailə üzvlərimizin yarısı Şirvan şəhərindən, yarısı isə Bakıda məskunlaşmışdı. Bir – birimizi ilə indiki kimi, əlaqəmiz yox idi. Yalnız dəfnindən sonra İsakın şəhid oluduğu xəbərini aldıq. Dəfn mərəsimində bibim və onun oğlu, İsakın döyüş yoldaşları var idi. Onun cənasizi Şirvana 1994 – cü ilin aprel ayının 27 – də gətirilmiş, 28 isə dəfn olunmuşdu...

İsakın qardaşı Firudin Fərəcov xatirələrində:

- 1992 – cı ildə könüllü batalyona yazılmışam. İlk döyü - şüm Zəngilan rayonunun Xumarlı kəndində olub. Əsas silahım avtomat idi. Son döyüşüm 1992 – ci ilin dekabr ayında olub... Haqani Cəbrailov batalyonumuzun komandir idi. Gecə ikən komandirimiz bizə, məlumat verdi ki, biz Qafan şəhərinin Həyrək kəndinə hücum etməliyik. avtomat silahlarla və qumbara ilə silahlandıq, hücuma hazırlaşırdıq. Bizə əlavə yardım kimi 110 nəfər gənc əsgər göndərilmişdi. Onlar çox təcrubəsiz idilər. Cəmi 2 ay idi ki, orduda idilər. Gecə saat 4 də hücum başladıq. Qarşımızda 10 nəfər bələdçi gedirdi. Onların arxasınca isə batalyonumuz gelirdi. 3 dəstəyə bölünmüşdük. Meşənin içində hücuma başladıq. Erməni postunu ələ keçirəndən sonra Həyrək kəndinə girdik. Atışma başlandı. Səhər saat 8- ə doğru artıq Həyrək ələ keçirmişdik. Burada "Lokator" adlanan bir hündür yer var idi. Ermənilər həmin yerdən, bizə qumbara atanla, topla atəş açırdılar. Geri çəkilməyə məcbur olduq və çox itki verdik. Əsgərlərmizin təçrubəsi az olduğuna görədə başlarını tamam itirmişdilər. Atışma zamanı mərmilərdən biri mənim yaxınlıqıma düşdü. Mən əyağımdan, başımdan, qollumdan yaralandım. Aylanda anladım ki, heç nə işitmirəm. Amma yeriməyə gü - cüm qaldığınıda hiss etdim. Zəminin iciylə geri qayıtdıq. Gecə hücuma keçdiyimizə görə, geriyə uzanan yolu unutmuşduq. Sumqayıtlı bir əsgər mənə kömək etdi. O, məni sürüyə- sürüyə məni bir təpəyə çıxardı. Əsgərə dedim ki, "bizim post burada, yaxındadır. Məni göy get, sonra kömək göndərərsən". Mən Zəngilan rayonun xəstəxanasına cərrahiyyə gətirdilər. Cərrahiyyə əməliyatına məruz qaldım. Mərmi parçalarının, yarısını bədənimnən çıxardıla, bu parçalarının yarısı isə hələdə bədənimdədir. 1994 – cü ildə müharibə meydanından ayrıldım.

İsakın bacısı Səbinə Fərəcova ona belə bir şeir həsr etmişdi.

Xəzan oldu bağça – bağlar,
Heç bu dərdə dözməz dağlar.
Məzar üstə anan ağlar,
Nə yatıbsan, oyan qardaş!
Dağlar dözməz qarsızlığa,
Bəs mən necə dözüm sənsiz?
Bacı, anadan xəbərsiz,
Həzin - həzin yat, ay qardaş!

Müharibə - ən dəhşətli faciədir lakin müharibələrində sonu var. Bütün Azərbaycan Xalqı əmindi ki, Heydər Əliyevin davamçısı, Prezidentimiz İlham Əliyev bu müharibədən törənmiş bütün ağır problemləri sülh yolu ilə həll edərək, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunacaq.



Azərbaycan Xalqı xöşbəxtdir ki, muasir tarixinin ən ağır məqamlarında (1993 – çü - 2003) ona Heydər Əliyev kimi müdrik siyasi xadim rəhbərlik etmişdir. Heydər Əliyev Azərbaycan Respublikasına qayıdanda ölkəmiz çox ağır bir vəziyyətdə idi. Hadisələrin gedişi sübüt etdi ki, vətəndaş müharibəsi siyasi hakimiyyət böhranını məngənəsində sıxılan Azərbaycan Respublikasına rəhbərlik etmək məsuliyyəti yalnız Heydər Əliyev öz üzərinə götürə bilərdi. Azərbaycan Xalqı müdrük rəhbərinə inandı, güvəndi və onu dəstəklədi. Müdrik və uzaqgörən rəhbər isə xalqını siyasi, iqtisadi müstəqiliyin ağır, mürəkkəb yolları ilə inamla irəli apardı. Həmin dövürdə Heydər Əliyevin Azərbaycan Res - publikasının rəhbərliyinə yenə arzuları qayıtmasa idi xalqın müstəqillik, firavanlıq kimi gercəkləşməzdi. 1993-cü il iyun ayının 15 -da dahi Heydər Əliyevin Azərbaycan Respublikasına qayıdışı xalqımızın taleyində önəmli rol oynamışdır. Heydər Əliyev davamçısı Prezident İlham Əliyev qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət xəttinin həyata keçirilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunması sahələrində mühüm uğurlar qazanışdır. Geniş dünyagörü - şünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi beynaxalq aləmində böyük hörməti və nüfuz qazanmışdır. O, sürətlə dəyişən muasir dünyada, baş verən qloballaşma və inteqrasiya proseslərinə, fəal dəstək verir, bütün beynəlxalq görüşlərdə, yüksək səviyyəli danışıqlarında beynaxalq Azərbaycan Xalqının ön mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. Azərbaycan Respublikasının beynaxalq və regional problemlərin həllində də rolu və nüfuzu məs İlham

Əliyevin uğurlu xarici siyasəti sahəsində artır. Son illərdə ölkəmizdə istenilen istiqamet üzrə böyük nailiyyətlər, qazanmışdır. Azerbaycan Respublikasının dünya birliyinin böyük dəstəyi ile dünyanın en mötəbər qurumu olan “BMT” Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Azerbaycan Respublikası iqtisadi sahədə dünya miqyasında ən sürətlə inkişaf edən ölkəyə cevrilmişdi. Bütün istiqamətlər üzrə uğurlu nəticələr göz qarşısındadır. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir. Rayonlarımızın abadləşması proqramı uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlet proqramları uğurla yerinə yetirilmişdir. Biz kosmik dövlətə fəzaya nəzarət edən dövlətə çevrilmişik. Heydər Əliyevin arzularının gərcekləşməsində dövlətciyimizi irsimizi, mədəniyyətimizi dünya səviyyəsində tantdırmaqdadır. Heydər Əliyev Fondunun və onun sədri Mehriban xanım Əliyevinin böyük rolu vardır.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar olaraq əlil olmuş şəxslərin, şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” sərəncam imzalamışdır.

Bu sərəncamda bildirilir ki, 2014-cü ilədək bu kateqoriyadan olan 4278 əlil və şəhid ailəsi mənzillə təmin edilib, 5731 nəfər yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olanlar, qismində qeydiyyata alınıb alınıb. AR- nın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılıb ki, 2014-cü ilin yanvar ayının 1-dək yerli icra hakimiyyəti orqan - larında yaşayış sahəsinə ehtiyacı olanlar qismində qeydiyyata alınmış, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə

əlaqədar olaraq əlil olmuş şəxslərin və şəhid ailələrinin 2014-2018-ci illər ərzində, mərhələlərlə mənzillərlə və yaxud fərdi yaşayış sahəsi ilə təmin edilməsi üçün tədbirlər planı hazırlayıb Azərbaycan Respublikasının prezidenti ilə razılaşdırmaqla həyata keçirsin. Yerli icra hakimiyyəti orqanları AR-nın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müraciəti əsasında bu sərəncamın 1-ci hissəsində göstərilən məqsədlər üçün torpaq sahələrinin ayrılmasını təmin etməli və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat verməlidir.

Şəhidlərimizin ailələri Qarabağ müharibəsinin veteranları, qaçqınlar və məcburi köçkünlər hər zaman Prezidentimiz İlham Əliyevin diqqət mərkəzindədir. O, vətənimizin parlaq gələcəyi üçün əlindən gələni əsirgəmir. Prezidentimizin uğurları saysız - hesabsızdır.... Azərbaycan Xalqı Prezident İlham Əliyevə inanır və onunla irəliləməyə hazırdır. Erməni qəsbkarları tərəfindən işğal olunmuş vətən torpaqlarının azad olunacağına dövlət bayrağımızın Qarabağda dalğalanacağına tam əminik. İnşallah, ədalət bərpa olunar, minlərlə şəhidlərimizin ruhu sevinər...

# Zəngilan rayonun şəhidləri



**Əsədov Məhəmməd Nəbi oğlu**

General Əsədov Məhəmməd Nəbi oğlu 1941-ci il dekabr ayının 5-də Zəngilan rayonunun Baharlı kəndində anadan olub. 1958-ci ildə orta məktəbi bitirdikdən sonra Bakı Statistika texnikomuna daxil olmuşdur.

Əmək fəaliyyətinə Zəngilan rayon Dövlət Statistika Müfəttişliyində inspektor vəzifəsində çalışmaqla başlamışdır. 1961-ci ildə orduya çağırılıb. Əsgəri xidməti başa vurduqdan sonra Sumqayıt şəhərində Sənaye Tikinti Nazirliyinin 21 saylı trestində işləyib. Bir il sonra bu idarədə iqtisadçı, 1967-ci ildən isə həmin trestin 26 saylı tikinti idarəsində plan-iqtisad şöbəsinin rəisi vəzifəsinə təyin edilib. 1968-ci ilin dekabr ayından Sumqayıt şəhər Partiya Komitəsinin sənaye-nəqliyyat şöbəsinin təlimatçısı, 1973-cü ildən həmin şöbənin rəisi, 1975-ci ildən isə təşkilat şöbəsinin rəisi olub. 1978-ci ildə Ağsu rayon Xalq Deputatları Soveti İcraiyyə komitəsinin sədri seçilib. 1983-cü ildə Bakı Ali Partiya məktəbini bitirdikdən sonra Beyləqan rayon Mərkəzi Komitəsinə birinci katib vəzifəsinə təyin edilib. Sonra Azərbaycan KP MK-da inzibati orqanlar şöbəsinin müdiri vəzifəsinə təyin olunub. Sonra Quba rayon Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə təyin olunub. Ölümündən bir neçə gün öncə dövlət müşaviri təyin olunmuşdu.

1991-ci ilin 20 noyabrında Dağlıq Qarabağda Qarakənd kəndi səmasında ermənilər tərəfindən vurulan MN 8 hərbi vertalyotunda şəhid olmuşdur.



**Abbasov Qaytaran İbrahim oğlu**

Abbasov Qəhrəman İbrahim oğlu 1964-cü il 12 yanvar Zəngilan rayonunun Qıraq Müşlan kəndində anadan olub. 1979-cu ildə həmin kəndin səkkizillik məktəbini qurtardıqdan sonra, Zəngilan kənd orta məktəbində orta təhsilini başa vurub. Sonra rayon 144 saylı texniki peşə məktəbində təhsil alıb. Hərbi qulluğun başa vurduqdan sonra Mingəçevir şəhərində elektrik quraşdırma idarəsində çalışıb.

1991-ci ildən Ağdam, Tərtər, Qubadlı və Zəngilan bölgələrində könüllü olaraq döyüşlərdə iştirak edib.

1992-ci ildən Zəngilan batalyonunda vuruşub.

1993-cü il may ayının 16-da qəhrəmancasına şəhid olub.

Ailəli idi. Sona adlı qızı yadigar qalıb.

**Abbasov Məhərrəm Mehdi oğlu**



Abbasov Məhərrəm Mehdi oğlu 1973-cü ildə Zəngilan rayonunun Tatar kəndində anadn olub.

1991-ci ildən Zəngilan rayonundakı “N” saylı hərbi hissədə qulluq etməyə başlamışdır. 1993-cü ilin oktyabr ayından Füzuli rayonu uğrun - da gedən döyüşlərdə iştirak edib. 1994-cü ildə Fizuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Əli-Bayramlı şəhərindəki şəhidlər xiyabanında dəfn olunub.



**Abbasov Səhiyəddin İsmayıl oğlu**

Abbasov Səhiyəddin İsmayıl oğlu 1968-ci il martın 11-də Zəngilan rayonunun Genlik kəndində anadan olub. 1985-ci ildə Genlik kənd orta məktəbini, sonra isə rayon 144 saylı texniki-peşə məktəbini bitirib. 1992-ci ildə Bakı Politexnik texnikumunu bitirib. Əfqanıstanda hərbi xidmət keçib. Xidmət etdiyi müddətdə "Beynəlmiləl döyüşçü" və "Ordunun yaranmasının 70 illiyi" medalları ilə təltif olunub.

Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. Bu müddətdə gizir rütbəsi alıb və tağım komandiri təyin olunub. 1993-cü ildə Ağdərə rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Bakıda şəhidlər xiyabanında dəfn olunub.



**Abdinov Sərvər Famil oğlu**

Abdinov Sərvər Famil oğlu 1974-cü ildə Zəngilan rayonunun Alıbəyli kəndində anadan olub. 1981-ci ildə Alıbəyli kənd orta məktəbinin birinci sinfinə gedib və 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib. Sənədlərini Bakıdakı Ticarət-Kommersiya məktəbinə verib, qəbul olub.

Dekabrın 10-da Zəngilanda baş vermiş hadisələri görən Sərvər məktəbin 2-ci kursundan çıxıb doğma torpağı Zəngilana gəlir. O, rayon hərbi komissarlığına

müraciət edir. Respublika hərbi komissarlığının çağırış məntəqəsinə göndərilir. Oradan isə Sərvəri Əli Bayramlı şəhər Respublika Daxili Qoşunlarının hərbi hissəsinə üç aylıq kursa göndərirlər. Təlim müddəti başa çatdıqdan sonra o, Zəngilana göndəriş alır.

30 mart 1993-cü ildə döyüşdə qəhrəmancasına şəhid olub.

"Vətən uğrunda" medalı ilə təltif olunub.

Subay idi.



**Abdullayev Eynur Sahib oğlu**

Abdullayev Eynur Sahib oğlu 14 avqust 1968-ci ildə Zəngilan rayonunun Ağbis kəndində anadan olub. 1985-ci ildə İsgəndərbəyli kənd orta məktəbini qurtarıb. Sovet ordusunda hərbi xidmət keçib.

Milli ordu yarananda könüllü milli ordu sıralarına daxil olub. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. Sonra rayon polis idarəsində işləyib.

29 oktyabr 1993-cü ildə Zəngilan rayonunun müdafiəsi zamanı qəhrəmancasına şəhid olub.

Sumqayıtda Şəhidlər Xiyabanında dəfn olununb.

Ailəli idi. Bir qızı yadigar qalıb.



**Abdullayev İlqar Niftulla oğlu**

1960-cı ildə Bakı şəhərində doğulub. Hələ orta məktəbdən öz şəxsi davranışı ilə diqqəti cəlb edib, təhsil qabaqcılı olub.Doğma torpaqlarımız erməni təcavüzünə məruz qalanda xalqımızın digər qeyrətli oğulları kimi o da silaha sarılıb.İlqar Zəngilana gəlməmişdən qabaq Qarabağın Daşaltı, Şuşa, Xocalı döyüşlərində iştirak etməklə neçə-neçə erməni düşməndən qisas almışdır. Bu şəhərlər ermənilərə təhvil veriləndən sonra, İlqar evə qayıtsa da, otura bilməmiş Zəngilana gəlmişdir.

O, Zəngilanın Qazançı, Canbar, Ağkənd kəndlərindəki postlarda xidmətdə durub.Onun üçün bircə şey qiymətli idi, Vətən.

Vətənini hamımızdan, her şeydən çox sevirdi.1992-ci ilin mayın 24-də şəhid olub.

Ailəli idi.Bir uşağı yadigar qalıb.

Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.



**Abdullayev Ramiz Fikrət oğlu**

1966-cı ildə Bakı şəhəri Qaradağ rayonunun Şubanı kəndində anadan olmuşdur. Erkən yaşlarında atasını itirən Ramiz təhsilini Xırdalan qəsəbəsində babasının himayəsi altında alır. 1977-ci il aprel ayından babasının yaşadığı Quba rayonunun Qonaqkənd orta məktəbində təhsilini davam etdirib. 1985-ci ildə orta məktəbi qurtardıqdan sonra sentyabrda hərbi xidmətə çağırılır. 1987-ci ilin noyabr ayında hərbi xidməti başa vurduqdan sonra 26 Bakı Komissarı adına qoyunçuluq sovxozunda fəhlə işləyib. 1992-ci ilin noyabr ayından Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 30 mart 1993-cü ildə qəhrəmancasına şəhid olub. Subay idi.

**Abdullayev Rövşən Əbdülhüseyn oğlu**



Abdullayev Rövşən Əbdülhüseyn oğlu 1969-cu ildə Lerikdə rayonunda anadan olub. Orta məktəbi Astara rayonunda bitirib. 1987-ci ildə Leninqrad şəhərində SSRİ DİN-in nəzdindəki Ali Hərbi Siyasi məktəbə daxil olub. 1991-ci ildə orada təhsilini başa vuraraq leytenant rütbəsi ilə respublikamızda daxili qoşun hissəsində işləməyə başlayıb.

1992-ci ilin iyulunda tağım komandiri kimi Zəngilana göndərilib. Zəngilan rayonunun müdafiəsində iştirak edib.

1992-ci ilin dekabrında Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

**Abışov Bəhlul Qabil oğlu**



Abışov Bəhlul Qabil oğlu 16 iyun 1969-cu ildə Zəngilan rayonunun İkinci Ağalı kəndində anadan olub. 1986-cı ildə Ağalı kənd orta məktəbini bitirib. 1987-ci ildə Litva Respublikasında hərbi xidmət keçib.

1992-ci ildə milli ordu sıralarına daxil olub. Zəngilanın rayonunun müdafiəsində iştirak edib.

19 yanvar 1994-cü ildə Fizuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Abşeron rayonu Masazır kəndindəki qəbristanlıqda dəfn olunub.

**Abışov Təvəkkül Qüdrət oğlu**



Abışov Təvəkkül Qüdrət oğlu 1966-cı ildə Zəngilan rayonunun Şərifan kəndində anadan olub. Hacallı kənd orta məktəbini bitirib. 1983-85ci illərdə Kaluqa şəhərində hərbi xidmətdə olub.

1993-cü ilin aprel ayından milli ordu sıralarında xidmətə başlayıb. Ağdam rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

13 iyun 1993-cü ildə Ağdam rayonunun Şelli kəndi uğrunda gedən döyüşlərdə qəhrəman - casına şəhid olub.



**Abışov Vüqar Abbasqulu oğlu**

1970-ci ildə Zəngilan rayonunun Alıbəyli kəndində anadan olub.1987-ci ildə Alıbəyli kənd orta məktəbini bitirib.Sonra kolxozda gözətçi işləyib.1988-ci ildə keçmiş Sovet Ordu sıralarına gedib. Hərbi xidmətdən qayıtdıqdan sonra yenə kolxozda fəhlə işləyib.1993-cü ilin yanvar ayında rayon hərbi komissarlığı tərəfindən rayondakı döyüş batalyonuna çağırılır. Onun döyüş yerləri Ağbənd, Şükürataz və Şayıflı kəndləri olmuşdur.

10 aprel 1993-cü ildə Kolluqışlaq kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur.

Subay idi.

Zəngilan rayon Şəhidlər Xiyabanında dəfn olunub.



**Ağakişiyev Asif Xankişi oğlu**

1961-ci il iyul ayında Eemənistan Respublikasının Qafan rayonunun Şabadin kəndində fəhlə ailəsində anadan olub.Ailəlikcə 1968-ci ildə Abşeron rayonunun Mehdiabad qəsəbəsinə köçüblər. Həmin ildən birinci sinifə gedib. 1976-cı ildə Mehdiabad qəsəbə orta məktəbinin səkkizinci sinfini və texniki peşə məktəbini bitirdikdən sonra bir nömrəli üzümçülük sovxozunda fəhlə işləyib.1979-cu ildə hərbi xidmətə gedib,hərbi xidməti başa vurduqdan sonra ailə qurub.

1991-ci ildən Asif könüllü olaraq vətənin müdafiəsində

iştirak edib.O,Xocalının müdafiəsində,Daşaltı əməliyyatında, Zəngilan uğrunda gedən döyüşlərdə iştirak edib.

1992-ci il mayın 24-də şəhid olub.

Ailəli idi.İki oğlu və bir qızı yadigar qalıb.

Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.

**Ağayev Yavər Balaxan oğlu**



1972-ci ildə Masallı rayonunun Bala-Təklə kəndində anadan olub. 1989-cu ildə Şəfərə kənd orta məktəbini bitirən kimi sənədlərini Bakı şəhərindəki 14 saylı texniki peşə məktəbinə verib.1990-cı ildə peşə məktəbini qurtaran kimi hərbi xidmətə çağırılıb. Hərbi xidməti Qazaxıstanda, sonra isə Belorusiyada keçirmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra Bakı şəhər Xətai rayonunda tikinti idarəsində krançı işləmişdir.

1992-ci il sentyabrın 8-də könüllü olaraq Azərbaycan Milli Ordusuna qoşularaq Zəngilan rayonunun sərhədyanı bölgələrinin erməni quldurlarından müdafiə olunmasında iştirak etmişdir. 6 noyabrda Zəngilanın Qazançı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.

Ölümündən sonra Bala-Təklə kənd məktəbinə şəhid Yavər Ağayevin adı verilmişdir.



**Allahverdiyev Qorxmaz Bahadur oğlu**

1973-cü ildə Zəngilan rayonunda anadan olmuşdur. 1988-ci ildə Zəngilan şəhər səkkizillik məktəbi qurtarıb, sənədlərini rayondakı 144 saylı texniki peşə məktəbinə verib. Bu məktəbi başa vurduqdan sonra 1991-ci ilin mayında hərbi xidmətə çağırılır.

Xidməti borcunu rayonun döyüş postları olan Quyudərə, Xəştab, Rəzdərə, Kolluqışlaq və Qubadlı rayonundakı Başarat kəndi ətrafında gedən döyüşlərdə yerinə yetirirdi.

10 aprel 1993-cü ildə qəhrəmancasına şəhid olub.

Subay idi.



**Aslanov Eldar Əfraz oğlu**

1972-ci il mayın 21-də Sumqayıt şəhərində anadan olub. Sumqayıt şəhərində 10 nömrəli məktəbin səkkizinci sinfini bitirib.1989-cu ildə 41 nömrəli orta texniki peşə məktəbin - də nəzirətçi-ölçü cihazları üzrə çilin - gər diplomunu alıb.İki ay Sumqayıt zavodlarının birində işləyib. Sonra hərbi xidmətə yola düşüb. Donetsk şəhərində 6 aylıq serjantlıq kursu keçib. Sonra Bakı və Sumqayıt şəhərində milis polkunda xidmət edib.

Zəngilan uğrunda gedən döyüşlərdə iştirak edib.

9 may 1992-ci ildə Zəngilan rayonunun Ağkənd kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.

Sumqayıtda Şəhidlər Xiyabanında dəfn olunub.

**Abbasov Taleh Tofiq oğlu**



Abbasov Taleh Tofiq oğlu 1989-cu ildə Zəngilan rayonunun Şərifan kəndində anadan olub. Sumqayıt şəhər 34 saylı orta məktəbini bitirib

2009-cu ilin aprel ayında hərbi xidmətə cağırılıb.

25 sentyabr 2010-cu ildə döyüşlərdə qəhrəmancasına şəhid olub.

**Babayev Hətəmxan Səfər oğlu**



1972-ci il avqustun 9-da Zəngilan rayonunun Keçikli kəndində doğulub. 1987-ci ildə Keçikli kənd natamam orta məktəbini qurtarıb, sənədlərini rayondakı 144 nömrəlli kənd texniki peşə məktəbinə verib. 1990-cı ildə həmin məktəbin elektrik-qaz qaynaqçısı diplomunu almışdır.

1990-cı ilin noyabrında Sumqayıt şəhərindəki milis batalyonuna hərbi xidmətə çağırılır. Ağdam rayonunda uğrunda gedən döyüşlərdə iştirak edib. 1aprel 1992-ci ildə Ağdam rayonunun Papravənd kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi.

Zəngilan rayon Keçikli kənd natamam orta məktəbi Hətəmxanın adın daşıyır.



**Babayev Saleh Valeh oğlu**

Babayev Saleh Valeh oğlu 1969-cu ildə Zəngilan rayonunun Dərə Gilətağ kəndində anadan olub. 1988-1090-cı illərdə Sovet ordusunda qulluq edib. 1992-ci ildən Zəngilan rayonu uğrunda gedən döyüşlrdə iştirak edib.

11 dekabr 1992-ci ildə şəhid olub.

Subay idi.



**Bayramov Pərviz Həsi oğlu**

Bayramov Pərviz Həsi oğlu 1972-ci ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olub. 1989-cu ildə N.Nərimanov adına Mincivan qəsəbə orta məktəbini bitirib.

Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 17 yanvar 1994-cü ildə Fizuli rayonunun Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Bakı şəhərindəki şəhidlər xiyabanında dəfn olunub.



**Bayramov Tarverdi Oruc oğlu**

1972-ci il dekabr ayının 12-də Xaçmaz rayonunun Zaliyevka kəndində anadan olub.1987-ci ildə Müşkür kənd orta məktəbinin səkkizinci sinfini bitirmişdir.1990-cı ildə peşə məktəbində təmirçi-çilingər peşəsi kursunu bitirmişdir.Rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır.

1992-ci ilin mart ayından Zəngilan uğrunda gedən döyüşlərdə iştirak edub.

1992-ci ilin may ayının 25-də qəhrəmancasına şəhid olmuşdur.

Subay idi.

Xaçmaz qəbiristanlığında dəfn olunub.

Ölümündən sonra oxuduğu Müşkür kənd orta məktəbinə onun adı verilmişdir.



**Bəşirov Adıgözəl Aşur oğlu**

1974-cü il Zəngilan rayonunun Zəngilan şəhərində anadan olub. 1991-ci il Zəngilan şəhər 3 saylı orta məktəbin bitirdikdən sonra gözəl tar çalma qaibliyyətini nəzərə alıb onu rayonun Şayıflı kəndində yerləşən 7 illik uşaq musiqi məktəbinə tar müəllimi təyin edirlər. 1992-ci ilin may ayının 19-da Adıgözəl Bəşirov Zəngilan rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə göndərilir. Hərbi hissənin rəhbərliyi onu gələcəkdə yaxşı bir zabit kimi

görmək üçün ali hərbi məktəbə göndərir.1997-ci ildə ali hərbi məktəbi müvəffəqiyyətlə başa vuraraq gənc bir zabit kimi “N” hərbi hissəyə göndərilir.

Onun döyüş yolu Cəbrayıldan, Fizulidən, Ağdamdan, Murovdağdan keçmişdir.Onun istedad və hərbi bacarığı nəzərə alınaraq 1999-cu ildə kəşfiyyat tağımı,2000-ci ilin dekabr ayinin 11-də “N” hərbi hissəyə motoatıcı bölük komandiri təyin olunmuşdur. 2002-ci ilin aprelin 13-dən o, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin əmri ilə “N” saylı hərbi hissəyə taqım komandiri vəzifəsinə təyin olunmuşdu.

2003- cü ilin avqust ayının 4 də dövlət tapşırığı yerinə yetirərkən mina partlayışı zamanı aldığı çoxsaylı qəlpələrdən həlak olmuşdur.



**Cabbarov Sabir Vəli oğlu**

Cabbarov Sabir Vəli oğlu 1959-cu ildə Qafan rayonunda anadan olub. 1977-79-cu illərdə Sovet ordusunda xidmət edib.

10 dekabr 1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhiid olub.

Ailəli idi. Üç övladı yadigar qalıb.



**Cəfərov İbiş Süleyman oğlu**

1974-cü ildə Zəngilan rayonunun Dərəli kəndində anadan olub.1990-cı ildə Dərəli kənd orta məktəbini bitirib. Zəngilan rayonunun Qazançı kəndindəki döyüşlərdə iştirak edib. Sonra hərbi xidmətə çağırılıb.

Ağdərə uğrunda gedən döyüşlərdə iştirak edib.

20 sentyabr 1992-ci ildə qəhrəmancasına həlak olub.

Subay idi.

Bakıda Şəhidlər Xiyabanında dəfn edilib.



**Cəfərov Sərvan Qüdrət oğlu**

Cəfərov Sərvan Qüdrət oğlu 18 iyun 1972-ci ildə Zəngilan şəhərində anadan olub. 1989-cu ildə şəhərdəki 3 saylı orta məktəbi qurtarmışdı. 1991-ci ildə rus ordusu sıralarında qulluğa gedib. Hərbi xidməti başa vurduqdan sonra rayona qayıdıb.

Vətəninə qayıdan kimi rayon daxili işlər şöbəsində işə girib. Bir neçə dəfə rayonun döyüş zonalarında, Şayıflı və Şatarız kəndlərindəki döyüşlərdə iştirak edib. 1993-cü il aprel ayının 10-da döyüşdə qəhrəmancasına şəhid olub.

"Vətən uğrunda" madalı ilə təltif olunub.

Subay idi.



**Dəmirov İbadulla Ağabala oğlu**

1959-cu ildə İmişli şəhərində anadan olub.1977-ci ildə hərbi xidmətə çağırılıb.1983-cü ildə Leninqrad şəhərində Ali hərbi məktəbə daxil olub. O,məktəbdə oxuyan zaman ailələri Biləsuvara köçür. Məktəbi qurtarandan sonra İbadulla təyinatla Alma-Ata şəhərində yerləşən hərbi hissəyə göndərilib.

1990-cı ilin yanvar ayından Azərbaycan Respublikası Daxili Qoşunlar Komandanlığının sərancamı ilə “N” hərbi hissəsinin birinci batalyonunda komandir müavini vəzifəsində çalışıb.

1992-ci il aprel ayından Ağdam rayonunun Papravənd kəndində gedən döyüşlərdə iştirak edib.Sonra o,Zəngilan rayonunun Şayıflı kəndində yerləşən “A” nöqtəsinə göndərilir. 24 iyun 1992-ci ildə İbadulla Qazançı kəndində qəhrəmancasına şəhid olub. Ailəli idi. Bir uşağı yadigar qalıb.



**Əhmədov Vidadi Famil oğlu**

1965-ci il Zəngilan rayonunun stansiya Bartaz kəndində anadan olub. Orta məktəbi qurtardıqdan sonra Bartaz dayanacağındakı be - ton-çınqıl 4-cü dərəcəli ekskovatorçu maşinist işləyirdi. Zəngilan uğrunda gedən döyüşlərdə iştirak edib. Qazançı kəndi istiqamətində gedən ağır döyüşlərdə Vidadi kontuziya alaraq hərbi xəstəxanaya gətirilir. 1993-cü ilin oktyabrında dünyasını dəyişir. Ailəli idi. 2oğlu vardı. Stansiya Bartaz kəndində dəfn edilib.



**Əliyev Azər Əyyub oğlu**

1971-ci il aprelin 18-də Zəngilan rayonunun Qaradərə kəndində anadan olub. 1988-ci ildə rayon 144 nömrəli texniki peşə məktəbinin traktorçu kursunu bitirib. 1989-cu ildə Qazaxıstan Respublikasında hərbi xidmətdə olub. Hərbi xidməti başa vurduqdan sonra kəndlərinə qayıdıb və fəhlə işləyib. 25 avqust 1992-ci ildə Zəngilan Rayon Hərbi Komissarlığının çağırışı ilə özünümüdafiə batalyonuna gəlir. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 31 oktyabr 1992-ci ildə Kollüqışlaq kəndi ətrafında gedən atışmalarda qəhrəmancasına şəhid olub olub. Subay idi.



**Əliyev Məstalı İxtiyar oğlu**

Əliyev Məstalı İxtiyar oğlu 23 avqust 1973-cü ildə Zəngilan rayonunda anadan olmuşdur. 1980-ci ildə 1 nömrəli Zəngilan rayon orta məktəbini bitirib. 1993-cü lin 7 iyul tarixində Azərbaycan Silahlı Qüvvələrinə hərbi xidmətə çağırılmışdır. Füzuli, Ağdərə, Ağdam rayonları ərazisində gedən döyüşlərdə iştirak etmişdir.

1994-cü ilin 30 yanvar tarixində Ağdərə rayonunun Gödəkburun dağ silsiləsində gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Subay idi.



**Əliyev Salman İsməmməd oğlu**

Əliyev Salman İsməmməd oğlu 12 yanvar 1969-cu ildə Salyan rayonunun Sarvan kəndində anadan olub. 1987-89-cu illərdə Sovet ordusunda qulluq edib. 1992-ci ildən milli orduda qulluğa başlayıb.

24 dekabr 1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.



**Əsədov Əsəd Soltan oğlu**

Əsədov Əsəd Soltan oğlu 1958-ci ildə Zəngilan rayonunun Cahangirbəyli kəndində anadan olub. Mincivan qəsəbə orta məktəbini qurtardıqdan sonra hərbi xidmətə getmişdir. Hərbi xidməti başa vuraraq Saratov vilayətinin Krasnokutsk şəhərindəki təyyarəçilik məktəbinin Mülki aviasiya ixtisasına daxil olub. 1986-cı ildə təyyarəçilərin uçuş istismarı sənətinə yiyələnmişdir. Elə həmin ildən də, Yevlax Mülki Aviasiya İdarəsində işə başlamışdır. 1991-ci ilin oktyabr ayında Qarabağa növbəti uçuşu zamanı, Yevlaxdan Xocalı aeroportuna gələn AN-2 təyyarəsi Xanabad kəndi üzərində ermənilər tərəfindən atəşə tutulmuş və nəticədə Əsəd Əsədovla birlikdə xalqımızın daha yeddi qeyrətli oğlunun ömrü yarımçıq qaldı. “Azərbaycan Milli Qəhrəmanı” adına layiq görülüb. Ailəli idi. Dörd övladı yadigar qalıb.

**Əsgərov Bilal İsa oğlu**



1974-cü ildə Şayıflı kəndində anadan olub. 1991-ci ildə Şayıflı kənd orta məktəbini qurtarıb.

1992-ci ildə rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. Rayonun Yeməzli, Ağbis və Günqışlaq kəndlərindəki döyüşlərdə iştirak edib.

14 iyul 1992-ci ildə şəhid olub

Subay idi.

**Əsgərov Seymur Əsgər oğlu**



Əsgərov Seymur Əsgər oğlu 12 sentyabr 1973-cü ildə Zəngilan rayonunun Məlikli kəndində anadan olub. 1990-cı ildə orta məktəbi bitirib. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

10 dekabr 1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.



**Fərəcov Zahir Zakir oğlu**

Fərəcov Zahir Zakir oğlu 1972-ci ildə Zəngilan rayonunun Malatkeşin kəndində anadan olub. 1989-cu ildə Malatkeşin kənd orta məktəbini bitirib. 1990-cı ildə Sovet ordusunda hərbi xidmətə çağrılıb.

Avqust 1992-ci ildə Milli orduda xidmətə başlayıb. Zəngilan uğrunda gedən döyüşlərdə iştirak edib.

24 noyabr 1992-ci ildə Zəngilan rayonunun Seyidlər kəndinin müdafiəsi zamanı qəhrəmancasına şəhid olub.



**Feyziyev Nadir Bahadur oğlu**

Feyziyev Nadir Bahadur oğlu 1956-ci ildə Mincivan qəsəbəsində anadan olub. 1973-cü ildə Mincivan qəsəbə orta məktəbini qurtarıb. 1975-ci ildə ordu sıralarına gedib, xidməti borcunu yerinə yetirdikdən sonra Mincivan qəsəbə dəmiryol hərəkəti şöbəsində stansiya növbətçisi işləyə-işləyə Rostov şəhərində Dəmiryol Nəqliyyatı İnstitutunda qiyabi oxuyub. 1989-cu ildə nəqliyyat üzrə mühəndis ixtisasını alır. 1992-ci il aprel ayının 25-də könüllü olaraq Milli Orduya yazılır. 1993-cü il aprelin 11-də döyüşdə qəhrəmancasına şəhid olub.

"Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub.

Ailəli idi. Üç qızı yadigar qalıb.



**Gülməmmədov Əbülfət Əli oğlu**

Gülməmmədov Əbülfət Əli oğlu 6 sentyabr 1969-cu ildə Zəngilan rayonunun Bartaz kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Sovet ordusunda xidmət edib.

1992-ci ildə Milli orduda xidmətə başlayıb. Zəngilan və Füzuli rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.

8 yanvar 1994-cü ildə Füzuli rayonunun Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.

Bakıda Şəhidlər Xiyabanında dəfn edilib.

**Gülməmmədov Eynulla Valeh oğlu**



Gülməmmədov Eynulla Valeh oğlu 1968-ci ildə Zəgilan rayonunda anadan olub. 1984-cü ildə orta məktəbin səkkizinci sinfini 1985-ci ildə isə Zəngilan rayon 144 saylı texniki peşə məktəbini bitirib.

Sovet ordusunda hərbi xidmət keçib. 1 dekabr 1991-ci ildən Milli orduda xidmətə başlayıb. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 21 sentyabr 1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi.



**Hüseynov Qahir Qüdrət oğlu**

Hüseynov Qahir Qüdrət oğlu 07.07.1968-ci ildə Goranboy rayonunun Sarov kəndində anadan olub.

1975-ci ildə Sarov kənd 8 illik məktəbin 1-ci sinifinə gedib ve 1983-cu ildə 8 illik məktəbini, 1985 ildə Dəlimmmədli orta məktəbini bitirib və həmin il- 1985-ci ildə Rusiyanın Ulyanovsk şəhərində Ali hərbi tank məktəbinə qəbul olunub. 1989 cu ildə ali məktəbi bitirib və təyinatla Rusiyanin Zabaykal hərbi dairəsində Ulan Ude şəhərində hərbi hissədə 198-ci motoatıcı diviziyasında tank alayının hərbi tank tağımının komandiri vəzifəsində leytenant rütbəsində hərbi qulluğa başlayıb. 1992 ci ildə 2 zabit dostu ilə vətənə köməyə gəldilər. Azərbaycan müdafiə nazirliyinə müraciət edib. N saylı alayda tank komandiri təyin olundu.1992 ilin mart ayında Ağdam rayonunda yerləşən N sayli hərbi hissənin tank taborunun komandiri vəzifəsinə təyin olunan baş leytenant Qahir Hüseynov dərhal əməliyyat və döyüş şəraiti ilə yaxından tanış olur. Xidmətinin ilk günlərindən qorxmazlığı və igidliyi ilə fərqlənən Qahir qisa bir zamanda komandanlığın və döyüşçülərin rəğbətini qazanır. Ağdam və Tət-Tər uğrunda gedən döyüşlərdə iştirak edib.

18 iyun 1992-ci ildə axşam 20:30 radələrində Qahir va Şirin Mirzəyev (polkovnik-leytenant, Azərbaycanın Milli Qəh - rəmanı) döuüşçülərin mövqelərini yoxlayıb növbəti döyüş tapşırıqlarını verib geri dönərkən Ağdamın Qaralar kəndi ərazisində UAZ 469 markalı avtomobildə minaya düşdülər. Azərbaycan xalqı onu həyatından çox sevən oğullarını itirdi.

Ölümündən sonra Azərbaycan Bayrağı ordeni ilə təltif olunub. Subay idi.

Goranboy rayonun Dəliməmmədli kəndində adına küçə var. Doğulduğu Sarov kənd Mədəniyyət evi Qahir Hüseynovun adını daşıyır.



**Həmidov Mehman**

Həmidov Mehman 1973-cü ildə Ağdaş rayonunda anadan olub. Ağdaş şəhər orta məktəbini bitirib.

Dekabr 1991-ci ildə milli ordu sıralarına çağrılıb.

Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

17 sentyabr 1992-ci ildə Zəngilan rayonu Qazançı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.



**Həsənov Samir Nizami oğlu**

1979-cu ilin aprelin 21-də Zəngilan rayonunda anadan olub. Zəngilan rayon hərbi komisarlığı tərəfindən hərbi xidmətə çağırılıb.

Cəbrayıl və Füzuli rayonları uğrunda gedən döyüşlərdə işirak edib.

1998-ci ilin oktyabrın 13-də Cəbrayıl rayonunun Cocuq Mərcanli kəndində şəhid olub.

Subay idi.



**Həsənov Zaur Həsən oğlu**

1974-cü il mayın 27-də Zəngilan şəhərində anadan olub. 1991-ci ildə 1 saylı orta məktəbi bitirdikdən sonra sənədlərini rayondakı144 saylı texniki peşə məktəbinin traktorçu-mexanizator şöbəsinə vermişdir. Məktəbi başa vurduqdan sonra 1992-ci il iyunun 6-da hərbi xidmətə çağırılıb.

Zəngilan rayonunun Kolluqışlaq, Şayıflı, Seyidlər və Ağbis,Goranboy bölgəsində olmuş və oradan Füzuli rayonu istiqamətinə göndərilmişdir. O, Horadiz stansiyası, Babı, Şükürbəyli, Kərimbəyli, Arayatlı, Horadiz kənd, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Kəlbəcər rayonunun Murovdağ bölgəsindəki Ömər, Murov, Güzgü istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. Aprelin 20-də Ömər dağı uğrunda gedən ikinci döyüşdə qəhrəmancasına şəhid olub.Sumqayıtdakı Şəhidlər xiyabanında dəfn edilmişdir. Subay İdi



**Heydərov Abbas Qurban oğlu**

Heydərov Abbas Qurban oğlu 23 sentyabr 1971-ci ildə Zəngilan rayonunun Məşədiismayıllı kəndində anadan olub.

1987-ci ildə Rəzdərə kənd orta məktəbini bitirib.1989-1991-ci illərdə Sovet ordusunda qulluq edib.

1992-ci ildə Milli orduda xidmətə başlayıb.Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

23 avqust 1992-ci ildə Zəngilan rayonunun Kolluqışlaq kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

**Heydərov Şərif Yaşar oğlu**



Heydərov Şərif Yaşar oğlu 19 yanvar 1970-ci ildə Zəngilan şəhərində anadan olub. 1988-1990-cı illərdə Sovet ordusunda qulluq edib.

Zəngilan və Füzuli rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.

19 sentyabr 1994-cu ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Polis serjantı idi. Bakının Saray qəsəbəsində dəfn olunub. Subay idi.

**Həziyev Əjdər Mehdi oğlu**



Həziyev Əjdər Mehdi oğlu 3 sentyabr 1974-cü ildə Zəngilan rayonunun Vənətli kəndində anadan olub. 1991-ci ildə Vənətli kənd orta məktəbini bitirib. 1992-ci ilin sentyabr ayında orduya çağırılıb. Ağdərə və Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 15 may 1993-cü ildə Zəngilan rayonu uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olub. “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunub.

Zəngilan rayonunda Şəhidlər Xiyabanında dəfn olunub.



**Hüseynov Elşən Famil oğlu**

Hüseynov Elşən Famil oğlu 1972-ci ildə Zəngilan rayonunun Cahangirbəyli kəndində anadan olub. 1987-ci ildə Cahangirbəyli kənd səkkizillik məktəbini bitirib. 1992-ci ildən Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

21 yanvar 1993-cü ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.



**Hüseynov Ramazan Yunis oğlu**

Hüseynov Ramazan Yunis oğlu 1971-ci ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olub. 1989-cu ildə N.Nərimanov adına Mincivan qəsəbə orta məktəbini bitirib. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 17 yanvar 1994-cü ildı Fizuli rayonunun Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

**Hüseynov Zakir İsgəndər oğlu**



Hüseynov Zakir İsgəndər oğlu 1956-cı ildə Zəngilan rayonunun Dəlləkli kəndində anadan olub. Dəlləkli kənd səkkizillik məktəbini bitirib.

1974-1976-cı illərdə Sovet ordu - sunda hərbi xidmət keçib.

1991-ci ilin dekabr ayında milli orduda xidmətə başlayıb. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

3 aprel 1993-cü ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oub.

Zəngilan Şəhidlər Xiyabanında dəfn olunub.

Ailəli idi. Dörd övladı yadigar qalıb.

**Həsənov Eldəniz Novruz oğlu**



Həsənov Eldəniz Novruz oğlu iyun 1973-cü ildə Zəngilan rayonunda anadan olub. 1987-ci ildə Gədə - bəy rauonunun Kəlaman kəndinə köçüblər. E. Həsənov adına Hacılar kənd orta məktəbini bitirib.

1990-1991-ci illərdə Sovet ordusunda qullluq edib. 1991-ci ildən Azərbaycan Milli ordusu sıralarında qulluğa başlayıb. Gədəbəy və Murov dağ uğrunda gedən döyüşlərdə iştirak edib.

Fevral 1994-cü ildə Murov dag uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.



**İsmayılov Kərəm İdris oğlu**

İsmayılov Kərəm İdris oğlu 27 iyul 1963-cü ildə Zəngilan rayonu Mincivan qəsəbəsində anadan olub. 1978-ci ildə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra Zəngilan rayon 144 saylı texniki-peşə məktəbinə daxil olub. 1983-1985-ci illərdə Qazağıstan Respublikasında hərbi xidmət keçib. 1993-cü ilin noyabr ayinda milli ordu sıralarına daxil olub. Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 9 yanvar 1994-cü ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.

Ailəli idi. Üç övladı yadigar qalıb.



**İsmayılov Pirqulu Heydərqulu oğlu**

1963-cü ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olub. 1980-ci ildə Mincivan qəsəbə orta məktəbini qurtarıb. Hərbi xidməti başa vurduqdan sonra Mincivan qə - səbə su idarəsində maşinist işləyirdi.

Doğma torpaqlarımızın erməni təcavüzünə məruz qaldığını görən Pirqulu əlinə silah alıb orduya yollandı. Zəngilan rayonunda gedən döyüşlərdə iştirak edib. 1 iyul 1992-ci ildə Zəngilanın Günqışlaq kəndində şəhid olub. Ailəli idi. Bir uşağı yadigar qalıb.

**İsmayılov Yavər İsmayıl oğlu**



İsmayılov Yavər İsmayıl oğlu 1969cu ildə Zəngilan rayonunun Hacallı (Həkəri stansiyası) kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra Tacikistan və Qazaxıstanda ordu sıralarında xidmət etmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra erməni vəhşiliklərini görüb, könüllü olaraq Milli Orduya yazılır. Zəngilan və Füzuli rayonları uğrunda gedən döyüşlərdə iştirak edib. 1994-cü il fevralın 2-də Füzuli rayonun Əbdürrəhmanlı kəndinin azad olunması uğrunda gedən amansız döyüşlərdə qəhrəmancasına şəhid olub.

Sumqayıtda, Şəhidlər xiyabanında dəfn edilmişdir.

**İsmayılov Fazil İdris oğlu**



İsmayılov Fazil İdris oğlu 15 iyul 1970-ci ildə Zəngilan rayonu Mincivan qəsəbəsində anadan olub. 1985-ci ildə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra Zəngilan rayon 144 saylı texniki-peşə məktəbinə daxil olub. 1988-ci ildə sovet ordusunda hərbi xidmətə çağırılıb.

Hərbi xidməti başa vurduqdan sonra milli ordu sıralarına daxil olub. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

17 aprel 1993-cü ildə Zəngilan rayonunun Sobu kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.



**Məhərrəmov Ceyhun Məhərrəm oğlu**

28 oktyabr 1973-cü ildə Biləsuvar rayonunun Xırmandalı kəndində kolxozçu ailəsində anadan olmuşdur. Xırmandalı kənd orta məktəbini qurtardıqdan sonra 1992-ci ilin 5 martında Biləsuvar rayon hərbi komissarlığı tərəfindən hərbi qulluğa çağırılıb. Zəngilan rayonunda yerləşən "N" saylı hərbi hissəsində atıcı və sürücü olmuşdur.

Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 24 iyun 1992-ci ildə Zəngilan rayonunun Qazançı kəndindəə şəhid olmuşdur.



**Məmmədov Firdovsi Xeyrulla oğlu**

14 may 1961-ci ildə Mincivan qəsəbəsində anadan olub.1978-ci ildə 36 nömrəli Mincivan qəsəbə dəmiryol orta məktəbini qurtarıb. Sonra hərbi xidmətini Əfqanistanda başa vurduqdan sonra, Volqaaqrad şəhərində hərbi məktəbə qəbul olunur.Sonra proporşik rütbəsi ilə Bakı şəhərinə qayıdıb, hərbi hissələrin birində xidmət edib. Xankəndi ətra - fında gedən döyüşlərdə iştirak edib.

11 dekabr1991-ci ildə qəhrəmancasına şəhid olub. Azərbaycanın ilk şəhididir. Evli idi. Bir qızı, bir oğlu var.

Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.

**Məmmədov Müqabil Səfəralı oğlu**



Məmmədov Müqabil Səfəralı oğlu 15 noyabr 1972-ci ildə Zəngilan rayonunun Alıbəyli kəndində anadan olub. Alıbəyli kənd orta məktəbini bitirdikdən sonra Sovet ordusunda hərbi xidmətdə olub. Hərbi xidmətdən qayıtdıqdan sonra rayonda yaradılmış batalyonda tağım komandirinin müavini olub. 1992-ci ildən Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli rayonlarında döyüşlərdə iştirak edib.

1994-cü il yanvarın 8-də Füzuli rayonunun Qorqan kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi. Sabunçuda Şəhidlər Xiyabanında dəfn olunub.

**Məmmədov Pənah Məmməd oğlu**



Məmmədov Pənah Məmməd oğlu 1965-ci ildə Qafan şəhərində anadan olub. 1980-ci ildə səkkizillik məktəbi bitirib.

1983-85-ci illərdə Sovet ordusunda xidmət edib.

10 dekabr 1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ailəli idi. Iki övladı yadigar qalıb.



**Məmmədov Ramiz Telman oğlu**

Məmmədov Ramiz Telman oğlu 21 may 1973-cü ildə Zəngilan rayonunun Ağbənd kəndində anadan olub.

Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

30 dekabr 1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.



**Məmmədov Səyavuş Əli oğlu**

Məmmədov Siyavuş Əli oğlu 1972-ci ildə Zəngilan rayonunun Havalı kəndində anadan olub. 1989-cu ildə Havalı kənd orta məktəbini bitirib.

Sovet ordusunda hərbi xidmət keçib. Sovet ordusundan qayıtdıqdan sonra miilli orduda xidmətə başlayıb.

1994-cü ildə Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olub.

**Mustafayev Xaliq Seyidəli oğlu**



Mustafayev Xaliq Seyidəlı oğlu 1965-ci ildə Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində anadan olub. 1983-cü ildə Sarallı Xəştab kənd orta məktəbini və Naxçıvanda sürücülük məktəbini bitirib.Sovet ordusunda qulluq edib. Zəngilan və Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edib

30 yanvar 1994-c ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub

**Nağıyev Balaca Sabir oğlu**



Nağıyev Balaca Sabir oğlu 15 May 1966-cı ildə Zəngilan rayonunun Bartaz kəndində anadan olub. 1983-cü ildə Bartaz kənd orta mək - təbini bitirib. 1984-86-ci illərdə Sovet ordusunda qulluq edib.

1992-ci ildən Milli ordu sıralarına qatılıb. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

15 iyul 1993-cü ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.



**Nağıyev Əsgər Vəli oğlu**

Nağıyev Əsgər Vəli oğlu 1969-cu il Zəngilan rayonunun Bartaz kəndində anadan olub. 1984-cü ildə Bartaz kənd orta məktəbinin səkkizinci sinfini, sonra Naxçıvan Politexnik teknikomunu bitirib. 1988-90 cı illərdə Sovet ordusunda qulluq edib.

Zəngilan və Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

25 avqust 1993-cü ildə Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi.



**Namazov Məhyəddin Şükür oğlu**

Dərə Gilətağ kəndində anadan olub. 1992-ci ildə Vənətli kənd orta məktəbini bitirib.

Ermənilərin xain müdaxilələrinin durmadan artdığı bir dövrdə vətənə peşəkar hərbiçilərin hava-su kimi vacib olduğunu dərk edərək, sənəd - lərini Bakı Ali Hərbi Məktəbinə verib. İmtahanlardan uğurla keçib və tələ - bə adını qazanıb.

Amma nə etsin ki. ona bu məktəbdə sonadək təhsil almaq, diploma sahib olmaq qismət deyilmiş!

İkinci kursun başlanğıcında səfərbərliyə alınaraq Füzuli bölgəsinə döyüşlərə göndərilib. Düşmən hücumlarının qar -

şısını almaq üçün bir neçə qarşıdurmada iştirak edən Məhyəddin 1994-cü il may ayının ilk günlərində ağır yaralanıb.

Təcili olaraq Bakıya hərbi hospitala çatdırılıb. Onun xilası üçün həkimlər bir aya yaxın müddətdə operativ müalicə və cərrahi müdaxilələr ediblər. Lakin qeyrətli eloğlumuzun başının üzərini kəsən əcəldən yaxa qurtarmaq mümkün olmayıb...

May ayının 27-si onun həyatda son günü olub.

Sumqayıtda, Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

**Novruzov Sahib İsrafil oğlu**



Novruzov Sahib Israfil oğlu. 1964-cü ildə Zəngilan rayonunun Şayıflı kəndində anadan olub.1971-ci ildə Şayıflı kənd orta məktəbinə daxil olub, 1981-ci ildə isə oranı bitirib. Elə həmin ildə də Azərbaycan Neft - Kimya institutunun Kimya texnologiya fakültəsinə daxil olub. 1986-cı ildə institutu fərqlənmə diplomu ilə bitirib. 1987-1988 ci illərdə Rusiya - nən Perm şəhərində hərbi xidmətdə olub. 1991-ci ildən Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

10 dekabr 1992-ci ildə Zəngilan rayonunun Seyidlər kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.



**Nuriyev Elnur Eyvaz oğlu**

Nuriyev Elnur Eyvaz oğlu 22 avqust 1975-ci ildə Zəngilan rayonunun Cahangirbəyli kəndində anadan olub.1992-ci ildə kənd orta məktəbini bitirmişdir.

1993-cü ilin oktyabrın 18-də Zəngilan rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağrılır. Təlim-məşqdən sonra Füzuli bölgəsinə göndərilir. 1994-cü ilin aprelin 24-də Tərtər bölgəsində vəziyyət gərginləşdiyindən onların briqadası köməyə göndərilir. Qaraqaşlı, Qapanlı, Susuyan və Azadqaraqoyunlu kəndlərinin alınmasındakı döyüşlərdə iştirak etmişdir.

Oktyabrın 4-də Gəncə qiyamı zamanı döyüşdə şəhid olub. “Azərbaycan Milli Qəhrəmanı” adına layiq görülüb.

Kürdəmir rayonunun “Şəhidlər Xiyabanı”nda dəfn olunub.

Subay idi.



**Orucov Elşən Zülfüqar oğlu**

Orucov Elşən Zülfüqar oğlu 1974-cü ildə Zəngilan rayonunun Aladin kəndində anadan olub. 1991-ci ildə Vənətli kənd orta məktəbini bitirib.

1992-ci ildə hərbi xidmətə çağırılıb. Ağdərə və Zəngilan rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.

11 aprel 1993-cü ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

“Hərbi xidmətlərə görə” medalı ilə təltif olunub.

Zəngilanda Şəhidlər Xiyabanında dəfn olunub.

**Qəhrəmanov Samiq Məhəmməd oğlu**



Qəhrəmanov Samiq Məhəmməd oğlu 31 avqust 1971-ci ildə Gəncə şəhərində anadan olub. Gəncə şəhər 7 saylı orta məktəbi bitirib. Məktəbi bitirdikdən sonra Gəncə Maşınqayırma texnikumuna daxil oub.

1991-ci ildə Milli orduda xidmətə başlayıb. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

21 avqust 1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

**Quliyev Aqil İsmayıl oğlu**



1971-ci ildə Zəngilan rayonunun Vənətli kəndində anadan olub.1988-ci ildə Vənətli kənd orta məktəbini bitirib.1988-ci ilin oktyabr ayinda keçmiş Sovet Ordusu sıralarına çagirilib.Hərbi xidməti başa vurduqdan sonra rayona qayidib. Bir il sonra ermənilərin Azərbaycana elan olunmamış müharibəsi ilə əlaqədar yaradılmış milli orduya çağırılır. O, rayonun Sobu kəndindəki qalada, Süsən meşəsinin mal yatağı deyilən yerdə, Qubadlının Bəşarat kəndində gedən döyüşlərdə iştirak edib.1993-cü ildə onu Bakı şəhərindəki hərbi məktəbə göndərillər. Hərbi məktəbi başa vurduqdan sonra “N” hərbi hissədə bir zabit kimi qulluq edir.

1994-cü ildə ermənilər Tərtər rayonuna basqın edərkən Aqil də yoldaşlari kimi həmin bölgəyə göndərilir. 25 sentyabr 1995-ci ildə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə həlak olmuşdur. Sumqayıtda Şəhidlər Xiyabanında dəfn olunub.



**Quliyev Ramazan Dünyamalı oğlu**

Quliyev Ramazan Dünyamalı oğlu 1961-ci ildə Zəngilan rayonunun Məmmədbəyli kəndində anadan olub. 1967-ci ildə Məmmədbəyli kənd orta məktəbinin birinci sinfinə gedib, 1978-ci ildə həmin məktəbin onuncu sinfini başa vurub, həqiqi hərbi xidmətə yola düşüb. Hərbi xidməti başa vurduqdan sonra Rusiyanın şəhərlərindən birində işə girib. 1992-ci ildə könüllü olaraq rayona gəlib və milli orduya üzv yazılıb. Dekabr ayından kəşfiyyat qrupunun komandiri təyin olunub. Onun döyüş yolları rayonun Şayıflı və Nəcəflər kəndləri istiqamətindən keçib. 1993-cü il avqustun 25-də Cəbrayıl rayonu ərazisində gedən qanlı döyüşdə qəhrəmancasına şəhid olub. “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunub. Ailəli idi. Ölümündən 10 gün sonra yadigarı olan bir qız uşağı dünyaya gəlib.



**Qurbanov İlyas Məmmədqulu oğlu**

Qurbanov İlyas Məmmədqulu oğlu 1971-ci ildə Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində anadan olub. 1985-ci ildə Yuxarı Yeməzli kənd səkkizillik məktəbini bitirib. 1986-88-ci illərdə Zəngilan rayon 144 saylı peşə məktəbində təhsil alıb. 1989-91-ci illərdə Sovet ordusunda qulluq edib. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

10 dekabr 1992-ci ildə ermənilərin Zəngilan rayonuna hücumu zamanı qəhrəmancasına şəhid olub.

**Rəsulov Dadaş Əmirxan oğlu**



Rəsulov Dadaş Əmirxan oğlu 1971-ci ildə Zəngilan rayonunun Malatkeşin kəndində anadan olub. 1978-ci ildə Malatkeşin kənd orta məktəbini qurtarıb. Həmin ildən rayon yol istismar idarəsində fəhlə işləyib. 1989-91-ci illərdə hərbi xidmətdə olub. Hərbi xidmətdən gələn gündən Zəngilan rayon özünümüdafiə batalyonuna yazılmışdır.

1992-ci il dekabrın 10-da erməni quldurlarının güclü hücumunun qarşısını alarkən rayonun Seyidlər kəndində qəhrəmancasına şəhid olub.

"Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub.

**Rüstəmov Adil Əmrah oğlu**



Rüstəmov Adil Əmrah oğlu 23 dekabr 1963-cü ildə Zəngilan rayonunda anadan olub. 1978-ci ildə İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində səkkizinci sinfi bitirib. 1983-cü ildə Bakı Politexnik texnikomunu bitirib.

Qazağıstan respublikasında hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra Qazağıstanda milis serjantı işləyib.

1992-ci ilin oktyabr ayından milli orduda xidmətə başlayıb.Kəşfiyyat bölüyünün komandiri işləyib.Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

10 dekabr 1992-ci ildə qəhrəmancasına şəhid olub.

Ailəli idi. Bir oğlu yadigar qalıb.

Zəngilan rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.



**Rüstəmov Bəhram Əhməd oğlu**

Rüstəmov Bəhram Əhməd oğlu 1962-ci il oktyabr ayının 27-də Malatkeşin kəndində anadan olmuşdur. 1980-cı ildə kənd orta məktəbini bitirib və həmin il Dnepropetrovsk Metallurgiya İnstitutunun mexanika fakultəsinə qəbul edilmiş, 1985-ci ildə həmin institutu bitirmişdir. 1985-ci ildən 1992-ci ilədək Sumqayıt boru prokatı zavodunda mühəndis-mexanik işləmişdir. 1992-ci ilin sentyabr ayından könüllü olaraq Füzuli rayonundakı bölgələrə getmiş, baş leytenant rütbəsində taqım komandiri kimi fəaliyyət göstərmişdir.

1994-cü il martın 3-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində gedən döyüşlərdə qəlpə yarası aldıqdan sonra, xəstəxanada dünyasını dəyişmişdir. "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub. Sumqayıtda Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi. İki yaşlı Əhmədi yadigar qalıb.



**Rüstəmov Emin Qəzənfər oğlu**

Rüstəmov Emin Qəzənfər oğlu 19 may 1974-cü ildə Zəngilan rayonunda anadan olub. 1991-ci ildə Zəngilan rayon 1 saylı orta məktəbini bitirib.

1992-ci ildə hərbi xidmətə çağrılıb. O, Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli rayonlarında döyüşlərdə iştirak edib.

1994-cü il yanvarın 6-da Füzuli rayonunun Horadiz qəsəbəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi.

Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.

**Rzayev Veyis Yusif oğlu**



Rzayev Veyis Yusif oğlu 27 yanvar 1970-ci ildə Zəngilan rayonunun Orta Yeməzli kəndində anadan olub. 1987-ci ildə orta məktəbi bitirib. 1988-90-cı illərdə Sovet ordusunda qulluq edib. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

10 dekabr 1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.

**Rzayev Vüqar Oqtay oğlu**



Rzayev Vüqar Oqtay oğlu 15 may 1974-cü ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olub. 1980-ci ildə N.Nərimanov adına orta məktəbin 1-ci sinfinə gedib.Məktəbi bitirdikdən sonra 1990-cı ildə İnşaat Texnikomuna daxil olub.II kursda oxuyarkən hərbi xidmətə çağırılıb.

Zəngilan və Füzuli rayonları uğrunda gedən döyüşlərdə iştirak edib. 14 yanvar 1994-cü ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

2-ci Şəhidlər Xiyabanında dəfn olunub.

Subay idi.



**Rzayev Faiq Əvəz oğlu**

Rzayev Faiq Əvəz oğlu 17 noyabr 1961-ci ildə Zəngilan Rayonunda anadan olub. Zəngilan şəhər 1 saylı orta məktəbi bitirib. BDU-nun Tarix fakültəsini müvəffəqiyyətlə bitirib. Zəngilan rayon komsomol komitəsində şöbə müdiri işləyib. Cəsarətlə qorxmazlıq rəmzi olan bu gənc azğın qonşuların torpaqlarımıza təcavüzünə dözməyərək Zəngilan rayonu DİŞ-də işə keçmişdi. Baş Leytenant rütbəsinə yüksəlmişdi. Az müddət ərzində sahə müvəkkili sonra Zəngilan Rayonu Din-də Kadrlar şöbəsinin rəisi vəzifəsinə keçirilmişdi. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 1993-cü il avqust ayının 24-də Zəngilan Rayonu qorunması uğrunda gedən döyüşlər zamanı həlak olub. Bir övladı yadigar qalıb



**Şahməmmədov Yanvar Famil oğlu**

Şahməmmədov Yanvar Famil oğlu 15 yanvar 1965-cı ildə Zəngilan rayonunun Nüvədi kəndində anadan olub. 1982-ci ildə Zəngilan rayon Bartaz kənd orta məktəbini bitirib. 1983-85-ci illərdə hərbi xidmətdə olub. 1992-ci ilin mart ayında torpaq - ların müdafiəsi üçün milli orduda xidmətə başlayıb.

Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

10 sentyabr 1992-ci ildə qəhrəmancasına şəhid olub.
Ailəli idi. Bir qızı yadigar qalıb.



**Şirinov Ağamirzə Əliraza oğlu**

Şirinov Ağamirzə Əliraza oğlu 13 mart 1962-ci ildə Zəngilan rayonunun Keçikli kəndində anadan olub. 1979-cu ildə Şəfibəyli kənd orta məktəbini bitirib. Orta məktəbi bitirdikdən sonra Bakı şəhər 2 saylı texniki peşə məktəbində təhsilini davam etdirib.

Sovet ordusunda hərbi xidmət keçib.

1990-cı ildə Zəngilan şəhər daxili işlər idarəsində polis baş serjantı kimi işə başlayıb.

Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 30 avqust 1992-ci ildə qəhrəmancasına şəhid olub.

Ailəli idi. İki uşağı yadigar qalıb.



**Sadıqov Qorxmaz İsmayıl oğlu**

Sadıqov Qorxmaz İsmayıl oğlu 1970-ci ildə Zəngilan rayonunun Malatkeşin kəndində anadan olub. 1986-cı ildə Malatkeşin kənd orta məktəbinin səkkizinci sinfini bitirdik - dən sonra sənədlərini rayondakı 144 saylı texniki peşə məktəbinə verib. 1989-cu ildə qaynqçı ixtisasını almaqla həmin məktəbi qurtarıb.

1989-cu ilin may ayından 1991-ci ilin may ayına kimi Rostov vilayətinin Taqanroq şəhərində aviasiya hissəsində xidmətdə olub. Hərbi xidmətdən baş serjant rütbəsi ilə qayıtmışdır.

1991-ci ilin iyul ayından 1992-ci ilin yanvarına kimi suvarma birliyində işləyib. 1992-ci ilin iyulunda Qubadlı rayonunda avtomobil sürücülüyü kursunu bitirib. İyul ayının 13-dən rayonun Seyidlər kəndində xidmətdə olub.

10 dekabr 1992-ci ildə döyüşdə qəhrəmancasına şəhid olub. "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.



**Səfərov Cümşüd Səfər oğlu**

Səfərov Cümşüd Səfər oğlu 7 dekabr 1968-ci ildə Zəngilan rayonunun Bartaz kəndində anadan olub. 1986-cı ildə Bartaz kənd orta məktəbini bitirib.

1987-89 cu illərdə Sovet ordusunda qulluq edib.

1992-ci ildə Milli ordu sıralarına qatılıb. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

15 iyul 1993-cü ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.



**Süleymanov Baloğlan Süleyman oğlu**

Süleymanov Baloğlan Süleyman oğlu 1960-cı ildə Keçikli kəndində anadan olub. 1975-ci ildə səkkizillik məktəbi bitirib, sənədlərini rayondakı 144 nömrəli texniki peşə məktəbinə verib. Traktorçu-maşinist diplomunu aldıqdan sonra “1 May” kolxozunda traktorçu-mühəndis, rayon rabitə qovşağında mexanik işləmişdir.

1992-ci ilin yanvar ayından könüllü olaraq milli orduya yazılır. Əvvəlcə tank komandiri, sonra isə kəşfiyyat qrupunun bölük komandiri vəzifəsini icra edir.

25 oktyabr 1993-cü ildə Cəbrayıl rayonunun Dərzili kəndində qəhrəmancasına həlak olur.

"Azərbaycan bayrağı" ordeni ilə təltif edilib.

Tərtər rayonunun Köçərli kəndində dəfn olunub.

Ailəli idi. Üç uşağı yadigar qalıb.



**Teymurov Cəmşid Qəhrəman oğlu**

Teymurov Cəmşid Qəhrəman oğlu 16 fevral 1970-ci ildə Zəngilan rayonunun Bartaz kəndində anadan olub. Bartaz kənd səkkizillik məktəbini və Zəngilan şəhər 144 saylı texniki peşə məktəbini bitirib.

1988-1990-cı illərdə sovet ordu - sunda qulluq edib.

1992-ci ildən milli ordu sıralarına qatılır. Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.

8 yanvar 1994-cü ildə Füzuli rayonunun Seyidəhmədli kəndində döyüşdə yaralanıb, 13 yanvar 1994-cü ildə hərbi qospitalda dünyasını dəyişib.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn olunub.



**Vəliyev Filman Kamran oğlu**

Vəliyev Filman Kamran oğlu 1970-ci ildə Zəngilan rayonunun Qaradərə kəndində anadan olub. 1987-ci ildə Qaradərə kənd orta məktəbini bitirib. 1989-1991-ci illərdə Sovet ordusunda qulluq edib.

Milli ordu sıralarında Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

26 oktyabr 1993-cü ildə Zəngilan rayonunun Vejnəli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.



**Zeynalov Anar Niyaz oğlu**

Zeynalov Anar Niyaz oğlu 17 may 1972-ci ildə Göyçay rayonunda anadan olub. 1986-cı ildə Göyçay şəhər 3 saylı orta məktəbini bitirib.

1991-ci ildə hərbi xidmətə çağırılıb. Zəngilan uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

24 avqust 1992-ci il Zəngilan rayonu Qazançı kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olub.



**Zeynalov Cəmil Sərdar oğlu**

Zeynalov Cəmil Sərdar oğlu 24 oktyabr 1971-ci ildə Zəngilan rayonunun Ağalı kəndində anadan olub. 1989-cu ildə Ağalı kənd orta məktəbini bitirib.

1991-ci ildə hərbi xidmətə başlayıb. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

10 dekabr 1992-ci ildə Zəngilan rayonunun Şayıflı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Subay idi.

**ALLAH RƏHMƏT ETSİN!**

***Cəvahir Ağayeva***

# *Unudulmayan xatirələr*

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor **Nadir MƏMMƏDLİ**

Dizayner: **Zahid Məmmədov**

Çapa imzalanmış 13.03.2015.
Şərti çap vərəqi 8,25. Sifariş № 202.
Kağız formatı 60x84 1/16. Tiraj 200.

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.